**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ GƏNCƏVİ adına ƏDƏBİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**SALATIN ALI qızı ƏHMƏDOVA**

# AZƏRBAYCAN ƏDƏBİ-TARİXİ PROSESİ İRSİNDƏ HEYDƏR ƏLİYEV KONSEPSİYASI

**5715.01 – Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid**

**Filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsində yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** **Teymur Həşim oğlu Kərimli,**
akademik

**Rəsmi opponentlər:** **Təhsin Mütəllim oğlu Mütəllimov,**
AMEA-nın müxbir üzvü

**Qəzənfər Məmməd oğlu Paşayev,**
filologiya üzrə elmlər doktoru, professor

**Gülşən Teymur qızı Əliyeva,**
filologiya üzrə elmlər doktoru, professor

**Aparıcı təşkilat:** **Bakı Slavyan Universitetinin Ədəbiyyat nəzəriyyəsi və dünya ədəbiyyatı kafedrası**

Müdafiə “ _____ ” __________ 2018-ci il saat “______”- da Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnistitutunun nəzdində filologiya üzrə elmlər doktoru və filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.131 – Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az 1143, Bakı şəhəri, H. Cavid prospekti, 115, Akademiya şəhərciyi, Əsas bina, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı, IV mərtəbə.

Dissertasiya ilə AMEA- nın Mərtkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat “____” _____________ 2018-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının**
**Elmi katibi:** **İsmixan Məhəmməd oğlu Osmanlı,**
**filologiya üzrə fəlsəfə doktoru**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Hər bir müstəqil dövlətin öz dövlətçilik siyasəti, milli ideologiyası olur. Heydər Əliyev Azərbaycanın dövlətçilik siyasətinin konsepsiyasını, milli ideologiyası olan azərbaycançılıq ideyasını müəyyənləşdirdi. Onun əsasında müstəqil Azərbaycanın sənət və ədəbiyyat siyasəti müəyyənləşdirildi. Heydər Əliyevin ədəbi-tarixi proses konsepsiyası onun milli dövlətçilik – azərbaycançılıq ideologiyasının əsas komponentlərindəndir. Mövzunun aktuallığını təyin edən əsas prinsip bununla bağlıdır.

Heydər Əliyevin siyasi hakimiyyəti dövründə Azərbaycanın ədəbi mühitində demokratikləşmənin, yenilik meyllərinin meydana çıxmasının şahidi oluruq. Milli ədəbi-tarixi proses bu fenomenal tarixi şəxsiyyətin himayəsi və qayğısı sayəsində keçmiş Ümumittifaq miqyasında ön cərgədə dayanıb. Heydər Əliyevin ədəbi-tarixi proses konsepsiyasını aşkara çıxarmaq, həm də XX əsr milli ədəbi-tarixi prosesin əsas istiqamətlərini müəyyənləşdirməyə xüdmət edir. Bu da mövzunun aktuallığını şərtləndirən başlıca amillərdən biridir.

Müxtəlif yığıncaq və iclaslarda, yazıçıların qurultaylarında, yubiley tədbirlərində Heydər Əliyev tanınmış şair və yazıçılarımızın, elm və incəsənət xadimlərimizin ədəbiyyat tariximizdəki mövqeyini müəyyənləşdirməklə, ədəbi mərhələləri təhlil etməklə yanaşı milli ədəbiyyatımızın yaxın onilliklərdə hansı milli və ədəbi dəyərləri yaşatmalı olduğunu da müəyyənləşdirib, Azərbaycanın ədəbi-tarixi prosesinin gələcəyinə işıq salıb. Mövzunu tədqiq etmək Heydər Əliyevin ədəbiyyatımızın gələcəyi üçün uzaqgörən ədəbi siyasətini dəqiqləşdirməyə imkan verəcək. Bu da mövzunun ədəbiyyatşünaslığımızda öyrənilməsinin aktuallığını bir daha təsdiq edir.

Heydər Əliyevin dövlət rəhbəri kimi böyüklüyü, dahiliyi ondadır ki, o, bütün məsələlərə, problemlərə konsepsiya səviyyəsində yanaşırdı. Onun ədəbi-tarixi proses konsepsiyasını bütöv şəkildə tədqiqata gətirmək Heydər Əliyevin bir dövlət rəhbəri, siyasi xadim kimi siyasi portretini tamamlamağa kömək edər. Bunu da mövzunun aktuallığı sırasında qeyd etmək olar.

Heydər Əliyevin ədəbi-tarixi proses və şəxsiyyətlər haqda irəli sürdüyü fikirlər dövlət başçısının və lider şəxsiyyətin metodoloji görüşlərini əks etdirmək baxımından da son dərəcə əhəmiyyətlidir. Belə bir mövzunun, problemin araşdırılması, ədəbiyyatşünaslığın aktual məsələləri sırasına daxildir.

**Tədqiqatın obyekti və predmeti.** Bu dissertasiyanın əsas obyektini Heydər Əliyevin Azərbaycan, dünya və rus ədəbiyyatı, ədəbi-tarixi proses, ədəbiyyat və siyasət, ədəbi əlaqələr, türk xalqları ədəbiyyatı və ədəbi abidələr, ədəbi dil və üslub haqqında 34 il ərzində müxtəlif münasibətlərlə söylədiyi nitq

və məruzələrin ədəbi-nəzəri mətnləri müəyyən edir. Bu əsərlər Heydər Əliyevin siyasi-diplomatik görüşləri, dövlətçilik təlimi kontekstində analitik təhlil yolu ilə dəyərləndirilir.

Tədqiqatın predmeti Heydər Əliyevin nəzəri-tarixi görüşlərində bədii ədəbiyyatın yeri, dəyəri və mövqeyi, ədəbi irsə müraciətin siyasi, ideoloji və estetik məqsədi ilə müəyyən olunur. Ədəbi sərvətlər, bədii-fəlsəfi ideyalar, poetik sistemlərin Heydər Əliyev təliminə hansı niyyətlərlə daxil oluduğunu müəyyənləşdirmək də tədqiqatın predmetinə daxildir. Dövlət və ədəbiyyat, ədəbiyyatda xalq taleyi, milli psixologiyanı təcəssüm etdirən bədii fenomen kimi söz sənətinin rolu, bədii sözün türk tarixini əks etdirmə imkanları kimi nəzəri problemlər də araşdırmanın predmetinə daxil olur.

**Tədqiqatın əsas elmi məqsəd və vəzifələri.** Əsas elmi məqsəd Heydər Əliyevin nəzəri irsində öz əksini tapmış ədəbi-nəzəri görüşlərinin əhatə etdiyi problemləri - ədəbi-tarixi proses konsepsiyasını, ədəbi irs təlimini, XX əsr ədəbiyyatının mərhələləri və əsas şəxsiyyətləri haqqında mülahizələrini, ədəbi əlaqələr və sovet dövrü ədəbiyyatı barəsində çıxışlarını sistemləşdirmək və ona elmi münasibət bildirməkdir. Nəzəri problem kimi dövlətçilik və ədəbiyyat problemi tədqiqatın aparıcı xəttini təşkil edir.

Bu əsas elmi məqsədə nail olmaq üçün dissertasiyada aşağıdakı vəzifələr müəyyən olunmuşdur:

- Heydər Əliyevin irsində tarix və ədəbiyyat münasibətlərinin qoyuluşunu tarixilik prinsipi ilə araşdırmaq;
- Onun ədəbi-tarixi proses konsepsiyası və bu konsepsiyaya daxil olan əsas nəzəri-estetik problemləri təsnif edərək sistemləşdirmək;
- Onun "Kitabi-Dədə Qorqud"un 1300, "Manas"ın 1000 illik yubileyləri ilə bağlı möhtəşəm fəaliyyətinin təhlili əsasında Heydər Əliyev və türk epos mədəniyyəti probleminin əsas qayəsi və müddəalarını şərh etmək;
- Heydər Əliyevin klassik ədəbiyyata baxışının tarixi-estetik mahiyyətini izah etmək;
- Dahi şair Füzulinin bütün dünyada təntənə ilə qeyd olunmuş 500 illik yubileyi ilə bağlı Heydər Əliyevin fəaliyyətinin ədəbi-tarixi əhəmiyyətini və şairlə bağlı görüşlərini şərh etmək;
- XX əsr ədəbiyyatının mərhələləri və şəxsiyyətləri – C.Məmmədquluzadə, Ü.Hacıbəyli, H.Cavid, S.Vurğun, C.Cabbarlı ilə bağlı Heydər Əliyevin mülahizələrinin mahiyyətini və müasir əhəmiyyətini tədqiq etmək;
- Ümumsovet ədəbi prosesinə, sovet dövrü Azərbaycan ədəbiyyatına Heydər Əliyev münasibətinin – tarixi və bədii həqiqət problemi kontekstində obyektiv tarixilik prinsipi ilə təhlilini vermək;

- Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin, milli dövlət ideologiyasının əsasında dayanan Azərbaycan dili – ana dili haqqında görüşlərinin ədəbiyyata təsiri məsələsinə aydınlıq gətirmək;
- Heydər Əliyevin ədəbiyyat, dil, mədəniyyət və incəsənətə münasibətinin əsasında dövlətçilik mənafeyinin dayandığını və bütün bunların Ulu öndərin azərbaycançılıq fəlsəfəsinin əsas komponentlərindən olması ideyasını əsaslandırmaq.

**Mövzunun tədqiq tarixi.** Ulu öndər Heydər Əliyevin milli sərvətimiz olan nəzəri irsi həmişə tədqiqatçıların diqqət mərkəzində olub. Onun barəsində ən dolğun və obyektiv tarixi həqiqətləri, onun şəxsiyyəti, Azərbaycanın taleyindəki tarixi rolu barəsində mülahizələri onu hamıdan yaxşı tanıyan və hamıdan çox böyük məhəbbətlə sevən Azərbaycan Respublikasının prezidenti, varisi İlham Əliyev söyləyib.

Ulu öndərlə uzun illər birgə işləmiş akademik Ramiz Mehdiyev onun şəxsiyyəti, lider kimi möhtəşəmliyi, fenomenal yaddaşı, nadir nitq mədəniyyəti, siyasi-tarixi rolu, azərbaycançılıq fəlsəfəsi haqqında konseptual qənaətlər irəli sürmüşdür (Mehdiyev R. Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. B., 2001; Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. B., 2002). Bundan başqa tanınmış Azərbaycan alimlərinin müstəqilliyimizin müxtəlif illərində nəşr etdirdikləri əsərlərində (N.Xudiyev "Heydər Əliyev və Azərbaycan dili" (1997); M.Yusifov "Dahi şəxsiyyətin nitq fenomenliyi" (1997); "Heydər Əliyev dil haqqında və Heydər Əliyevin dili" (1998); F.Abdullazadə "Heydər Əliyev: siyasi portret" (1998); S.Xəlilov "Lider, Dövlət, Cəmiyyət" (2001); B.Abbasov "Liderlik fəlsəfəsi" (2004); F.Bayramov "Heydər Əliyev və Azərbaycan tarix elmi" (2004); İ.Hüseynova "Müstəqil Azərbaycan dövlətinin qurucusu" (2004); İ.Kərimov "Heydər Əliyev: sənət, sənətkarlıq və sənətkarlar haqqında" (2005); Əsədullayev S. Heydər Əliyev və ədəbi proses (rus dilində). Bakı: 2005; Novruzov T. Heydər Əliyev və ədəbiyyat məsələləri. Bakı: 2007; V. Andrianov və H.Mirələmov "Heydər Əliyev" (2008); T.Əfəndiyev "Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz" (2011); N.Zamanov "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti" (2013); İsa Həbibbəyli "Heydər Əliyevin dövlətçilik təlimində azərbaycançılıq" (2016), E.Axundova "Heydər Əliyev. Şəxsiyyət və zaman" (çoxcildlik-2007-2013) Ulu öndərin dövlətçilik haqqında görüşləri, fenomenal şəxsiyyəti, lider kimi möhtəşəmliyi, geniş bioqrafiyası, tariximiz və dilimiz haqqında görüşləri, sənət haqqında çıxışları təhlil olunmuşdur.

A.Əliyevin "Heydər Əliyev və ədəbiyyatımız" (2007), "Heydər Əliyev və ədəbiyyat" (2009) toplusu və müəlliflər qrupunun Dövlət mükafatı almış "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" (2010) monoqrafiyasında

ümummilli liderin ədəbiyyata dair görüşlərindən, akademik İsa Həbibbəylinin ümumi redaktəsi ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəşr etdirdiyi "Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala" (2018) adlı məqalələr toplusunda isə Ulu öndərin obrazının bədii ədəbiyyatda inikasından bəhs edilir.

Müstəqillik illərində müdafiə olunmuş bəzi dissertasiya işlərində (Hüseynova İ. Müstəqil Azərbaycan dövlətinin yaranması və möhkəmlənməsində Heydər Əliyevin rolu. Bakı, 2003; Əhmədova S. Heydər Əliyevin dil siyasəti. Bakı, 2010; Məmmədova Ş. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı məsələləri. Naxçıvan, 2014 və s.) tədqiq etdiyimiz mövzu ilə bağlı bəzi məsələlərə toxunulmuşdur. Təqdim olunan tədqiqat işində isə ilk dəfə bu mövzu dissertasiya səviyyəsində sistemli şəkildə tədqiq olunur, Heydər Əliyev və ədəbi-tarixi prosesin metodoloji problemləri məsələsinə aydınlıq gətirilir.

**Dissertasiya işinin elmi yeniliyi.** İndiyə qədər Heydər Əliyevin ədəbi-nəzəri görüşləri çoxsaylı məqalələr və monoqrafiyalarda hərtərəfli izah olunub. Bu dissertasiya işində isə onun haqqındakı məqalə və monoqarfiyalar, müxtəlif yazılar ümumiləşdirilib, ədəbi irsi izah olunub, ilk dəfə olaraq Heydər Əliyevin milli ədəbiyyat siyasəti ədəbi-tarixi proses kontekstində, bütöv konsepsiya səviyyəsində tədqiq edilib.

Heydər Əliyevin həm tarixi, həm də ədəbi mərhələlərə yaxından bələdçiliyi ədəbi-nəzəri görüşlərinin formalaşmasına yaxından kömək etmiş, ədəbiyyat tariximizə obyektiv-tarixi mövqedən yanaşmasına imkan yaratmışdır. Odur ki, o, ədəbi şəxsiyyətlərə qiymət verərkən həmişə bir qayda olaraq tarixilik və müasirlik prinsiplərindən çıxış edirdi. Bu dissertasiyada ilk dəfə olaraq Heydər Əliyevin ədəbi-tarixi proses konsepsiyasına onun tarixilik və müasirlik meyarları ilə yanaşılır, ədəbi şəxsiyyət və mühit amilinə siyasi liderin konseptual elmi baxışları fonunda obyektiv qiymət verilir.

Bunu da qeyd edək ki, Heydər Əliyev ədəbiyyat və sənət məsələlərinə ədəbi-tarixi prosesə bir siyasi xadim, müdrik dövlət rəhbəri kimi qiymət verir, ədəbi fakt və hadisəni milli dövlətçilik və azərbaycançılıq mövqeyindən dəyərləndirirdi. Onun bu yanaşması ədəbiyyat və ideologiya, ədəbiyyat və dövlətçilik kimi mühüm nəzəri problemlərin həllinə yol açır. Heydər Əliyevin ədəbiyyat sahəsində fəaliyyətinin, dəyərləndirmələrinin və yönləndirmələrinin metodoloji prinsiplərini müəyyənləşdirmək dissertasiyanın başlıca elmi yeniliyidir. Dissertasiyada ilk dəfə olaraq Heydər Əliyevin ədəbi-tarixi proses konsepsiyası milli dövlətçilik ideologiyası əsasında tədqiqat predmetinə çevrilir, klassik ədəbi irsin, müasir ədəbi prosesin həm ictimai-siyasi, həm də ədəbi-mədəni əsasları bitgin bir ədəbi konsepsiya fonunda öyrənilir.

Dissertasiya müasir ədəbiyyatşünaslıq meyarları ilə yazılıb, Qərb və Şərq estetik fikrinin ədəbi-nəzəri sistemlərinə əsaslanıb. Bu mənada dissertantın tədqiqat mövzusuna çağdaş elmi baxışını da mövzunun elmi yeniliyi kimi dəyərləndirmək olar.

Təqdim olunan dissertasiya Heydər Əliyevin ədəbi irsini, nəzəri-estetik görüşlərini monoqrafik hüdudlarda araşdıran ilk fundamental tədqiqat əsəridir. Bu da dissertasiyanın elmi yeniliyinə daxildir.

**Tədqiqatın metodları.** Heydər Əliyev irsinin elmi-nəzəri tədqiqi zamanın tarixilik və müqayisəli-analitik metodlarından istifadə olunmuşdur. Dissertant həmçinin dövlətçilik haqqında antik filosofların, XVIII əsr maarifçilərinin, dünyanın tanınmış dövlət xadimlərinin, habelə Azərbaycan əliyevşünaslarının nəzəri-metodoloji xarakterli fikir və mülahizələrindən istifadə etmişdir.

**Dissertasiya işininnəzəri-praktik əhəmiyyəti.** Dissertasiya işindən Orta və Ali təhsil müəssisələrində Ulu öndərin siyasi bioqrafiyasının öyrənilməsi zamanı bir mənbə kimi istifadə etmək olar. Dissertasiya işində Ulu öndərin hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycan ədəbiyyatına olan sonsuz məhəbbəti, onun bu ədəbiyyatın və görkəmli ədəbi simaların dünya səviyyəsində tanıdılması istiqamətində gördüyü böyük işlər faktlar əsasında ətraflı şərh olunub. Bu mənada dissertasiya işindən həmçinin "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" kurslarında və gələcək tədqiqat işlərində istifadə etmək olar.

**Mövzunun aprobasiyası.** Dissertasiya işinin əsas müddəaları və nəticələri dissertantın Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya komissiyasının tövsiyə etdiyi jurnal və məcmuələrdə, eyni zamanda xarici ölkələrin nüfuzlu məcmuə və jurnallarında dərc etdirdiyi elmi məqalələrində, onun bir sıra beynəlxalq və respublika səviyyəli elmi konfrans, sessiya və seminarlardakı məruzə və çıxışlarında, mövzu ilə əlaqədar nəşr etdirdiyi monoqrafiya və kitablarında öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, hər biri müvafiq yarımfəsillərdən ibarət olan 5 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Fenomenal bir şəxsiyyət olan Heydər Əliyev təkcə ictimai-siyasi mühitin incəliklərini və mahiyyətini öyrənməklə kifayətlənmirdi, eyni zamanda humanitar elm sahələrinə də nüfüz edir, xüsüsən milli ədəbiyyatın tarixini, ədəbi prosesin cari vəzifələrini də izləyirdi. Onun müxtəlif yubileylərdə, yığıncaqlarda, yazıçıların qurultaylarında söylədiyi nitqləri bu

gün ədəbiyyatşünaslığımızın metodoloji mövqeyini müəyyənləçdirməkdə mühüm əhəmiyyət kəsb edir. O təksə şair və yazıçıların bədii irsini təhlil etməklə kifayətlənmir, haqqında bəhs olunan ədəbi şəxsiyyətin dövrü, fəaliyyət göstərdiyi ədəbi mühitin xüsusiyyətləri haqqında geniş ümumiləşdirmələr aparır, klassik və müasir ədəbiyyatın problemlərinə peşəkar ədəbiyyatşünas kimi yanaşmağı bacarırdı.

Heydər Əliyev klassik və müasir Azərbaycan ədəbiyyatının bütün dövrləri haqqında müəkəmməl biliyə malik idi. Həm tarixi, həm də ədəbi mərhələlərə yaxından bələd olması onun ədəbi-nəzəri görüşlərinin formalaşmasına yaxından kömək etmiş, ədəbiyyat tariximizə obyektiv-tarixi mövqedən yanaşmasına imkan yaratmışdır.

Dissertasiya işinin**"Heydər Əliyev irsində ədəbi-tarixi proses: əsas təmayüllər və konsepsiyalar"** adlanan birinci fəsli üç yarımfəsildən ibarətdir. Bu fəslin "**Ədəbi-tarixi proses çağdaş elmi meyarlar müstəvisində"** adlı birinci yarımfəslində göstərilir ki, Heydər Əliyev olduqca mürəkkəb, lakin bir o qədər də zəngin və ziddiyyətli XX əsrdə (1969) Azərbaycanda hakimiyyətə gəlib, öz varlığı ilə xalqına yüksək qürur və şərəf bəxş etmiş, istedadı və əməlləri ilə Azərbaycanın adını ucaltmış, Vətənini bütün dünyada tanıtmışdır. O, siyasi fəaliyyəti ilə yanaşı eyni zamanda zəngin qədim ədəbiyyatımızı, klassik söz sənətimizi, folklorumuzu, mədəniyyət və incəsənətimizi də dərindən öyrənir və siyasi fəaliyyətində onlardan ustalıqla istifadə edirdi.

Məhz bu səbəbdən hakimiyyətdə olduğu bütün dövrlərdə siyasi bilikləri ilə yanaşı onun əlində ictimai şüura tez və müqavimətsiz təsir edən bir qüdrətli vasitə var idi: bu, söz sənəti ədəbiyyat və incəsənət idi. Onun dövlətçilik konsepsiyasında ədəbiyyat və mədəniyyət, daha doğrusu mədəni siyasət önəmli yer tuturdu. Sonralar o, ədəbiyyatın və mədəniyyətin imkanlarından milli ideologiyamızın, istiqlal məfkurəsinin – azərbaycançılıq fəlsəfəsinin məxəzi kimi istifadə etməyə nail oldu. Məhz onun düzgün, tarixin gedişatını nəzərə alaraq düşünülmüş siyasəti sayəsində "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik, dahi şair Məhəmməd Füzulinin 500 illik yubileyləri ümumdünya miqyasında elm, mədəniyyət, söz sənəti, təfəkkür, mədəni-tarixi yaddaş bayramı kimi təntənə ilə keçirildi, təkcə Azərbaycanı yox, bütün türk birliyini dünyada tanıtdı.

Heydər Əliyev ədəbiyyata, mədəniyyətə yaddaş xəzinəsi kimi yanaşırdı. Ona görə də onun qorunmasına və təbliğinə böyük önəm verirdi. Heydər Əliyev ədəbiyyatın, bədii sözün gücünü yaxşı bilir, sözün bədii-fəlsəfi imkanlarından, poetik təsir gücündən bacarıqla istifadə edirdi. Söz ona təkcə ədəbi-bədii irs kimi yox, həm də təsir vasitəsi, milli şüuru oyadan, onu korşalmağa qoymayan güc və enerji saxlancı kimi lazım idi. Onun bir fikri bu qəna-

ətlərimizi əyaniləşdirə bilir: “Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir”[1].

Ədəbiyyatın qüdrətinə belə inam, hər şeydən öncə Heydər Əliyevin bədii-mənəvi sərvətlərimizə tükənməz məhəbbətindən irəli gəlirdi. Çünki onun fikrincə, Azərbaycan xalqının tarixi də, fəlsəfəsi də ən aydın və parlaq şəkildə məhz bədii ədəbiyyatda öz əksini tapmışdır.

Heydər Əliyevin zəngin irsinin dəyərli bir hissəsi ədəbi-tarixi proses haqqında konsepsiyasıdır. Onun ədəbi-tarixi proses konsepsiyası ədəbiyyat və mədəniyyətin tarixi taleyimizdəki roluna verdiyi yüksək dəyərdən qaynaqlanır: “Biz xalqımızın tarixi, keçmişi ilə, əldə etdiyi nailiyyətlərlə həmişə fəxr edirik. Bu sahədə xalqımızın tarixində ən görkəmli yeri mədəniyyət, ədəbiyyat tutur. Çoxəsrlik tariximizdə məhz mədəniyyət, ədəbiyyat, incəsənət xalqımızı çətin yollarla bu günə gətirib çıxarıbdır və xalqımızın mənəviyyatını, zənginliyini dünyaya nümayiş etdirib, dünya xalqlarına çatdırıbdır. Keçmişdə də, indi də xalqımız, respublikamız ən çox öz mədəniyyət, ədəbiyyat, öz intellektual səviyyəsi ilə dünyada tanınır”[2].

Heydər Əliyevin mədəniyyət, ədəbi-tarixi proses konsepsiyasının arxasında, onun siyasi-ideoloji baxışları, dövlətçilik məsələləri dayanırdı. Onun fikrincə, ədəbiyyat (ümumən mədəniyyət!) həm dünənki, həm də bugünkü tarixin bədii salnaməsi olmalıdır. Yazıçının vəzifəsi çevrəsində olduğu gerçəkliyi, yaşadığı tarixi və zamanı əks etdirmək, gələcək nəsillər üçün onun barəsində həqiqət qoyub getməkdir. Ədəbi-tarixi proses canlı tarixin bütöv bədii fəlsəfi obrazıdır.

Onun fikrincə, ədəbiyyat, bədii yaradıcılıq ictimai fikri, real tarixi şəraiti dinamik bir vəziyyətdə saxlamalıdır. O, ictimai şüuru idarə etmək, bu məqsədlə özünə sərfəli mühit yaratmaq üçün ədəbiyyat və incəsənətin mənəvi təsir imkanlarından bacarıqla istifadə edirdi. Gənc ədəbi nəslin vaxtında formalaşması, nəsillər arasında əlaqə, ənənə və varisliyin qorunması bu sırada mühüm yer tuturdu. O, bədii ədəbiyyatı zamana görə işlədir, tarixin tələbini əsas götürür, ən maksimum hüdudlarda ədəbiyyata tarixiliyi bir prinsip olaraq tətbiq edirdi. Heydər Əliyev həm dövlətimizə, həm ədəbi-bədii və mənəvi-əxlaqi məsələlərdə, ümumən dəyərvermə meyarlarında tarixilik prinsipinə -

[1]Heydər Əliyev. Müdrik fikirlər: iyun 1993-1998 oktyabr. Birinci kitab. Bakı: Çaşıoğlu, 2008, s.134.
[2]Yenə orada, s.260.

tarixin təcrübəsinə istinad edirdi.

Heydər Əliyev üçün bədii ədəbiyyatın dəyəri, hər şeydən öncə, həyat həqiqətini, real və tarixi gerçəkliyi hansı bədii obrazlarla, hansı hüdud və çərçivələrdə əks etdirməsi ilə ölçülürdü. Onun "ədəbi-tarixi proses" nəzəriyyəsi də belədir. Real gerçəklik tutumu bu anlayışı da ölçmək, onun məzmununu və bədii sərhədlərini təyin etmək üçün başlıca meyardır. Burada realist dünyabaxışı ilə tarixilik bir-birini tamamlayır. O, bütün problemlərin həllində tarixiliyə istinad edir və ona görə uduzmur, həmişə obyektiv mövqe tutmağa və qərar verməyə nail olurdu.

Heydər Əliyevin dövlətçilik konsepsiyasının xüsusi komponenti olan ədəbiyyat məsələsi həmişə ədəbi-tarixi proses kontekstində götürülmüşdür. Bu baxımdan ədəbi-tarixi prosesdə mühüm yeri olan maarifçilik prinsipi bu konsepsiyada mühüm yer tutur. O, maarifçiliyə və maarifləndirməyə geniş aspektdən, tarixi təkamülə və dövlətçiliyə uyğun şəkildə diqqət yetirirdi. Heydər Əliyev maarifçiliyin dövlətçilik mərhələsinmi formalaşdırdı, onun prinsiplərini hazırladı.

Böyük siyasətçi bədii sözün qüdrətindən nəinki geniş mənada oxucunu maarifləndirmək üçün istifadə edir, hətta gənc yazıçıların klassik ənənələrdən, bədii irsin təcrübələrindən öyrənməsini zəruri hesab edirdi. O, özü bədii ədəbiyyata böyük sevgi ilə yanaşır və bunu başqalarına da təlqin edirdi. Bədii ədəbiyyat ona xalqı milli bir toplum kimi təşkil etmək, psixologiyalara təsir etmək, öz sözünə inandırmaq və mövqeyini təsdiq etmək üçün lazım idi. Eyni zamanda, xalqın milli-mənəvi inkişafı, dünyaya ayıq gözlə baxması, başqaları qarşısında məğlub duruma düşməməsi üçün ədəbiyyat qiymətli qida mənbəyidir. Belə ki, "Kitabi-Dədə Qorqud"u Nizamini, Füzulini, Vaqifi, Cavidi, C.Məmmədquluzadəni, S.Vurğunu anlayan, tanıyan və sevən xalq onlardakı mənəvi gücü də mənimsəyir.

Heydər Əliyevin nəzəri-fəlsəfi görüşlərində maarifçilik xüsusi bir problemdir və onun müstəqil bir tədqiqata ehtiyacı var. Onun bütün sahələrdə baxışları kimi ədəbi-tarixi proses konsepsiyası üçün də təməl prinsip tarixilikdir. Heydər Əliyevə görə hər bir şəxsiyyəti, o cümlədən ziyalını – yazıçını və alimi tarix yetişdirir. Buna rəğmən ədəbi-tarixi proses ədəbiyyatın tarixdəki rolunu müəyyən edən, həm zamanla, həm fitri istedadla, həm də sənətkarın estetik idealı ilə bağlı olan bir prosesdir.

Bu fəslin **"Yeni lider və yeni ədəbi mərhələ: 60-cı illər ədəbiyyatında demokratik ideyalar"** adlanan ikinci yarımfəslində göstərilir ki, tarixin təcrübəsi sübut edir ki, ictimai-iqtisadi formasiyalar dəyişəndə, siyasi sistemlər biri-digərini əvəz edəndə, hətta bir cəmiyyətdə hakimiyyət dəyişmələri labüd şəkildə ortaya çıxanda ədəbi-tarixi prosesdə də təbəddülatlar baş verir. Bütün

keçmiş postsovet məkanında olduğu kimi Azərbaycanda da bir ədəbi-tarixi epoxa olaraq “60-cı illər” 1957-ci ildən başlamışdı. Əvvəlcə böyük sovet yazıçısı M.Şoloxovun “İnsanın taleyi” povesti çap olundu. O vaxta qədər əsasən kolxoz, sovxoz quruculuğunu, partiyanı və komsomolu, kommunizmi mədh edən, müharibə cəbhələrində sovet əsgərinin əfsanəvi qələbələrini pafosla şişirdən sovet ədəbiyyatı məhz bu əsər sayəsində hay-küydən, şüarçılıqdan, süni pafosdan adiliyə endi, cəbhə xətləri yox, adi insan qəlbinin qatları müharibə haqqında danışmağın vasitəsinə çevrildi. Azərbaycan nəsri də bu yolla getdi: M.Hüseynin “Yeraltı çaylar dənizə axır”, İ.Əfəndiyevin “Söyüdlü arx”, İ.Hüseynovun “Yanar ürək”, M.İbrahimovun “Böyük dayaq”, S.Əhmədovun “Görünməz dalğa”, “Dünyanın arşını” və s. romanlar yarandı. Poeziyada R.Rzanın “Qızıl gül olmayaydı”, “Bir gün də insan ömrüdür” və s. şeirləri meydana gəldi. M.Arazın, F.Qocanın, Ə.Kərimin ilk kiçik həcmli şeir kitabları çap olundu. Nəsr sahəsində Anar, Elçin, Y.Səmədoğlu, M. İbrahimbəyov, İ.Məlikzadə, S.Azəri kimi sənətkarlar özünü təsdiq etdirməyə nail oldu. Ə.Məmmədxanlı və İ.Əfəndiyevin nəsri, İ.Əfəndiyevin dramaturgiyası sayəsində yeni lirik-psixoloji üslub təşəkkül tapdı.

Ədəbiyyat və mədəniyyətdə 60-cıların ilk nailiyyətləri – 10 illik axtarışların fərəhli bəhrələri ortaya çıxanda məlum oldu ki, bu ədəbiyyatın problemləri də var. Doğrudur, 1956-cı ildə XX qurultayda İ.Stalinin şəxsiyyətinə pərəstişi kəskin tənqid edildi, 1937-ci il repressiya qurbanlarına kütləvi siyasi bəraət verildi və dəmir “intizama”, sərt ideologiyaya malik sovet cəmiyyəti bir qədər yumşaldı. Tarixə Xruşşovun “mülayimləşmə” epoxası kimi daxil olan bu dövrdə ədəbiyyatın əksər janrlarında cəsarətli addımlar atıldı. Nəsrdə V.Rasputinin, Y.Trifonovun, V.Belovun, Ç.Aytmatovun, N.Dumbadzenin, İ.Hüseynovun, Anarın, S.Əhmədovun, Elçinin, İ.Məlikzadənin əsərləri cəsarətli bədii-fəlsəfi ideyalarına, lirik-psixoloji təhkiyənin novatorluğuna görə ölkədə və xaricdə ciddi oxucu rəğbəti qazandı.

Poeziya sahəsində A.Voznosenskinin, E Yevtuşenkonun, E.Mejelaytisin, O.Süleymenovun, R.Rzanın, B.Vahabzadənin, M.Arazın, Ə.Kərimin, F.Qocanın, Ə.Salahzadənin fəlsəfi intellektual poeziyası, psixoloji lirikası poetik axtarışların istiqamətini müəyyənləşdirdi. Bütün bunlarla bərabər məhz 60-cı illərin sonunda məlum oldu ki, yeni ədəbiyyatın əksər nümunələri sosializm realizminin estetik meyarlarına uyğun gəlmir.

Hər üç növdə - şeirdə, nəsrdə və dramaturgiyada ədəbiyyat bədii pafosdan, boş şüarçılıqdan, patetikadan adiliyə, sadəliyə endi. Poeziya partiyaya, komsomola, süni əmək qəhrəmanına tariflər söyləməkdən imtina etdi, insan qəlbinin ən adi duyğularını tərənnümə üz tutdu, nəsr geniş, panoram təsvirlərdən insanın mənəvi aləmindəki təbəddülatlara sarı yönəldi,

dramaturgiyada pafosu adi danışıq tərzi əvəz etməyə başladı.

Azərbaycan yazıçılarının 1981-ci ildə keçirilən VII qurultayındakı nitqində Heydər Əliyev altmışıncıların ən yaxşı əsərlərinin çap olunduğu onilliyi, 70-ci illərin dəyərləndirərək ciddi nəzəri-metodoloji mülahizələr irəli sürür, iradlar bildirirdi: "Hər bir sənətkar öz xalqının övladıdır və onun tarixi qarşısında məsuliyyət daşıyır. Əvvəlki nəsillərin istedadı və əməyi ilə yaradılmış bütün sərvətləri mənimsəmədən, əvvəlki təcrübəyə arxalanmadan müvəffəqiyyətlə irəli getmək olmaz. Tarix ən qüdrətli və təsirli tərbiyə vasitələrindən şüurları və həyat mövqelərini formalaşdırma vasitələrindən biridir. Mədəniyyətin milli sərvətlərinin, demək olar əsas mühafizəçisi olan yazıçının yüksək vətəndaşlıq vəzifəsi xalqın tarixini onun müasir mədəniyyətinə xidmət göstərməyə cəlb etməkdir. Açıq demək lazımdır: Azərbaycan tarixinin bir çox parlaq səhifələri bədii ədəbiyyatda layiqincə əks etdirilməmişdir"[1].

Heydər Əliyev ədəbi fikri mənsub olduğu xalqın tarixinə yönəldir. Onun fikrincə, hər bir sənətkar öz xalqı və onun tarixi qarşısında məsuliyyət daşıyırdı. Bununla da yeni lider altımışıncıları xırda, ötəri mövzulara uymamağa, xalq həyatını əks etdirməyə istiqamətləndirdi. Doğrudur, hələ 50-ci illərin sonlarında M.Hüseynin "Yeraltı çaylar dənizə axır" romanında kollektiv və rəhbər problemi qoyulur, vəziyyət partiyanın adından danışan rəhbərin yox, kollektivin xeyrinə həll olunurdu. Yaxud, M.İbrahimovun "Böyük dayaq" romanında xalqa arxalanmayan, mənəm-mənəm deyən rəhbərin məğlubiyyətinin səbəbləri və labüdlüyü göstərilirdi. Altımışıncılardan İ.Hüseynov "Yanar ürək", S.Əhmədov "Dünyanın arşını", "Görünməz dalğa" əsərlərini yazdı. Bunlar yeni mərhələdə təzə problematika, ədəbi qəhrəmana keçidlə bərabər kiçik romana keçidi də hazırlayırdı. Anar, Elçin, İ.Məlikzadə, İbrahimbəyovlar əsasən, miniatür povest və lirik-psixoloji hekayə yazdılar. Anar ilk romanını "Beşmərtəbəli evin altıncı mərtəbəsi"ni 1979-da, Elçin "Mahmud və Məryəm", "Ağ dəvə", "Ölüm hökmü" romanlarını 80-ci illərdə qələmə aldı.

Heydər Əliyev tarixin gedişatını və ədəbi-tarixi prosesin perspektivlərini hələ 70-ci illərdə düzgün təyin edərək "altımışıncılar"ın axtarışlarını cəsarətlə dəstəklədi. 1998-ci ilin martında 60 illiyi münasibəti ilə Anara ünvanlanan məktubunda deyirdi: "Siz 60-cı illərdə ədəbiyyatımıza yeni ab-hava gətirmiş yazıçılar nəslinin görkəmli nümayəndələrindən birisiniz.

---

[1]Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı: nitqlər, məruzələr, çıxışlar. Tərtib edəni: V. Quliyev. Bakı: Ozan, 1999, s.139.

.

Müasirlərimizin zəngin mənəvi aləmini, qayğı və problemlərini yüksək bədii səviyyədə əks etdirən əsərləriniz daim ədəbiyyat həvəskarlarının diqqət mərkəzində olmuşdur. Bəşəriliklə milliliyin üzvi vəhdətini təşkil edən çoxcəhətli yaradıcılığınız cəmiyyətimizdə milli şüurun aşılanmasına və xalqımızın bir çox ölkələrdə tanınmasına xidmət etmişdir. Təşəbbüsünüzlə yaranan "Qobustan" toplusu azərbaycançılıq ideyalarının carçısına çevrilərək bütöv bir nəslin milli, mənəvi-əxlaqi qayə və duyğularının formalaşmasında böyük rol oynamışdır" [1].

Bu obyektiv-tarixi mülahizələrdə təkcə Anara yox, bütünlüklə altımışın-cıların yaradıcılığına xas xüsusiyyətlər – müasirlərimizin zəngin mənəvi aləminin təcəssümü, bəşəriliklə milliliyin bədii-fəlsəfi vəhdəti, cəmiyyətdə milli şüurun aşılanması öz əksini tapıb. Həqiqətən də XX əsrin 60-80-ci illərində "Qobustan" yeni tipli, müasir ideyalar daşıyıcısı kimi nəşr olunur, Anarın "Yaxşı padşahın nağılı", S.Əhmədovun "Dünyanın arşını", "Görünməz dalğa" romanları "Yamacda nişanə" povesti, M.Süleymanlının "Dəyirman" povestləri rejim tərəfindən birmənalı qarşılanmırdı. Bu illərdə B.Vahabzadənin "Gülüstan" poeması qadağan olunmuş, M.Arazın, X.Rzanın milli ruhlu şeirləri mövcud ideologiyaya uyğun gəlmədiyindən birmənalı qarşılanmırdı.

Heydər Əliyevin 60-cı illər ədəbi-tarixi prosesi haqqında özünəməxsus konsepsiyası var. Məsələ burasındadır ki, ədəbiyyatşünas olmasa da, Heydər Əliyev 60-cılar məsələsinə bir çox tənqidçi və ədəbiyyatşünasdan daha dəqiq yanaşırdı. Bu illərdə XX əsrin klassikləri – S.Rüstəm, M.İbrahimov, M.Rahim, Ə.Vəliyev, S.Rəhimov, Ə.Cəmil, O.Sarıvəlli kimi şəxsiyyətlər də yazıb yaradırdı. Heydər Əliyev yanaşmasına görə söhbət ideya-bədii baxımdan, fəlsəfi-poetik cəhətdən yeni keyfiyyət dalğası kimi ədəbiyyatın ab-havasını dəyişmiş, öz estetik konsepsiyasını formalaşdırmış "altımışıncılar" adlı təmayüldən gedir. Ədəbi tənqid buraya nəsr sahəsində - İ.Hüseynovu, S.Əhmə-dovu, Anarı, Elçini, M.İbrahimbəyovu, İ.Məlikzadəni, S.Azərini, poeziya sahəsində Ə.Kərimi, B.Vahabzadəni, M.Arazı, F.Qocanı, X.Rzanı, R.Rövşəni, Ə.Salahzadəni, İ.İsmayılzadəni, M.Yaqubu, F.Sadığı və b. daxil edir.

Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə, Moskvada SSRİ-nin nüfuzlu rəhbərlərindən biri kimi gərgin fəaliyyəti zamanı (1982-1993) təbii ki, ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra, ömrünün sonuna kimi (1993-2003) həmin ədəbiyyat, mədəniyyət, ümumən ən ictimai-humanitar fikir onun diqqət mərkəzində olmuşdur. Buna əminlik üçün H.Əliyevin Azərbaycan yazıçılarının V (1972), VI (1976), VII (1981) qurultaylarında, Azərbaycanda

---

[1]Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı.... , s.454-455.

geniş söz bayramı kimi keçirilən RSFSR-in ədəbiyyat və incəsənət günlərində (7-10 oktyabr 1972), Azərbaycanda sovet ədəbiyyatı günlərində (1975), Yazıçıların Ümumittifaq konfransında (1980) və s. ədəbi-mədəni tədbirlərdə etdiyi məruzə, nitq və çıxışlarla tanış olmaq kifayətdir. Bu məruzə və nitqlərdə XX əsrin ikinci yarısının – "60-cı illər"in ədəbi prosesinin əsas yaradıcılıq problemləri, inkişafın bədii nəzəri meyl və təmayülləri analitik təhlilin predmetinə çevrilirdi.

Heydər Əliyevin özü etiraf edirdi ki, o, Moskvada olarkən həmişə "Ədəbiyyat və incəsənət" qəzetini oxuyurmuş. Təkcə bu fakt onun Azərbaycanda gedən ədəbi prosesə, onun yaradıcı şəxsiyyətlərinin fəaliyyətinə marağını əks etdirir. Sözsüz ki, ümummilli lider ədəbi prosesi yalnız qəzet və jurnallardan izləmirdi, yazıçılarla əlaqə saxlayırdı, əsərlərini oxuyurdu. O, "60-cı illər" nəslinin taleyinə və yaradıcılığına da məhz bu kontekstdə yanaşırdı. Bir daha qeyd edək ki, məhz onun böyük nüfuzu, inadkar təşəbbüsü sayəsində Azərbaycanın görkəmli ziyalılarına xalq yazıçılarından S.Rəhimova, M.İbrahimova, S.Rüstəmə, R.Rzaya, bəstəkarlarından Q.Qarayevə, Niyaziyə, müğənni R.Behbudova dünyanın ən böyük dövləti olan SSRİ-nin ən şərəfli mükafatı – Sosialist Əməyi Qəhrəmanı adı verildi. 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra gənc yazıçılar üçün ayrı, yaşlı ədiblər üçün ayrı birillik mükafatlar, görkəmli ədəbiyyat elm və mədəniyyət xadimləri üçün ömürlük fərdi prtezident təqaüdləri, Müstəqil Azərbaycanın "İstiqlal", "Şöhrət", "Şərəf" ordenləri təsis olundu. Bunlar Heydər Əliyevin ədəbi siyasətinin tərkib hissələri, əsas atributları idi.

Heydər Əliyev ədəbi prosesin inkişafı üçün novatorluqla ənənə və varisliyin sıx əlaqəsini əsas şərtlərdən sayır, güc mənbərindən hesab edirdi. Ona görə də o sovet dövrü klassiklərinin – C.Cabbarlının, H.Cavidin, S.Vurğunun, S.Rüstəmin, R.Rzanın, S.Rəhimovun, M.İbrahimovun, M.Hüseynin, M.Dilbazinin, N.Rəfibəylinin, yaxud müasirləri olan İ.Əfəndiyevin B.Vahabzadənin, N.Xəzrinin, İ.Şıxlının, H.Abbaszadənin ədəbi-tarixi roluna böyük qiymət verir, onlara qayğı ilə yanaşırdı.

Heydər Əliyev xüsusilə poeziyada istedad və təfəkkürün vəhdətini yüksək qiymətləndirirdi. Bu əsl intellektual şeirin yolu idi. Həqiqətdə B.Vahabzadə də, M.Araz da kökləri dahi Füzuli yaradıcılığı ilə bağlı XX əsrdə başında R.Rza dayanan fəlsəfi-intellektual poeziya təmayülünün görkəmli nümayəndələri idilər. Bu poetik – fəlsəfi hərəkatda R.Rza, B.Vahabzadə, M.Araz, F.Qoca, Ə.Kərim, Ə.Salahzadə, F.Sadiq, R.Rövşən və s. aparıcı simalar idi. Xəlil Rza Ulutürkə isə Heydər Əliyevin münasibəti xüsusilə isti və doğma idi.

Böyük lider Heydər Əliyevin yeni nəsl şairlər içərisində dəyər verdiyi

şəxsiyyətlərdən biri də xalq şairi Zəlimxan Yaqubdur. 19 dekabr 1998-ci ildə indiki Heydər Əliyev adına sarayda şairin yaradıcılığına həsr olunmuş poeziya məclisində səhnə arxasında sənət adamları ilə söhbətində ümumən şairlik sənəti və bu kontekstdə də Z.Yaqubun yaradıcılığı haqqında dəyərli mülahizələr söyləmişdir.

Məhz bu konsepsiya istiqamətində də o, ayrı-ayrı şairlərin şəxsiyyətinə və yaradıcılığına ədəbi-tarixi və bədii-fəlsəfi qiymət verirdi. "Şeirlə deyilən sözün təsirini" hamıdan gözəl duyan və bilən Heydər Əliyev belə sözdən psixoloji təsir vasitəsi kimi bacarıqla istifadə edirdi. Azərbaycan ədəbiyyatının dahiləri – Xaqani, Nizami, Nəsimi və Füzulinin, türk üdəbasından olan – Əhməd Yəsəvi, Mövlanə Cəlaləddin Rumi, Yunis Əmrə, Ə.Nəvai kimi korifeylərin, Xəyyam, Hafiz, Sədi kimi müdriklərin yaradıcılığına dərindən bələd olan Heydər Əliyev eyni zamanda Şekspiri, Bayronu, Puşkini, B.Hüqonu, L.Tolstoyu, F.Dostoyevskini, T.Drayzeri də mükəmməl surətdə mütaliə etmişdi. O bu yüksək intellektual səviyyədən də xalq şairi Z.Yaquba dəyər verir və deyirdi ki, "Zəlimxan Yaqub bizim bu son illərdə çox üzə çıxmış, xalq tərəfindən sevilmiş və öz şeiri ilə, sözü ilə, fəaliyyəti ilə böyük hörmət qazanmış şairdir. Zəlimxan Yaqubun xüsusiyyətlərindən biri də odur ki, onun çox gözəl yaddaşı vardır. Bəli, bu hər şairə nəsib olmur, hər şairə məxsus deyil"[1].

Ədəbiyyat, mədəniyyət Heydər Əliyev üçün dövlətçiliyi qorumaq, möhkəmləndirmək, adamlara təsir etmək, cəmiyyəti təşkil etmək vasitəsi idi. Onun üçün müstəqillik dövründə ədəbiyyat, bədii sərvətlər, klassik irs, qədim türk eposları istiqlal ideologiyası olan azərbaycançılığın məxəzi rolunu oynamışdır. Bu baxımdan daha çox mətnaltı mənalarla danışan, milli yaddaşı qorumaq kimi ali bir məqsədə xidmət edən 60-cı illər ədəbiyyatının böyük əhəmiyyəti var. Bu ədəbiyyatın öz mənəvi aləminin təmizliyinə güvənən qəhrəmanları cəmiyyətdə də mənəvi təmizlik axtarır, rüşvətxorluğa, əliəyriliyə, əxlaqsızlığa qarşı mübarizə aparırdılar. Bu ədəbiyyat həmçinin konkret insan taleyini ön plana çəkdi, poetika sahəsində yeniliklər həyata keçirdi, 60-cıların yaradıcılıq fəallığı ilə ədəbiyyat sosioloji istiqamətdən bədii təkamül tərəfə səmt ala bildi. Heydər Əliyev məhz bu cəhətlərinə və bir də səmimiyyətinə, bədii fəlsəfi gücünə, gerçəkliyə münasibətdəki orijinallığına görə bu ədəbiyyatı yüksək qiymətləndirmiş, onun müdafiəsinə çalışmışdır.

Dissertasiyanın bu fəslinin **"Tarixilik və müasirlik çağdaş ədəbi dəyərlər kontekstində"** adlı üçüncü yarımfəslində göstərilir ki, ədəbi-tarixi

---

[1]Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı..., s.484.

prosesin strukturunu tarixilik olmadan təsəvvür etmək mümkün deyil. Bu prosesdə tarixilik müxtəlif tərzdə çıxış edir: "Tarixin, tarixi proseslərin, tarixi faktların və tarixi şəxsiyyətlərin ədəbiyyatda əksi tarixilik problemini, ədəbiyyata, bədii yaradıcılığa, ayrı-ayrı klassiklərin irsinə tarixin təcrübəsi ilə təhlil və dəyər vermək tarixilik prinsipini doğurur. Beləliklə, ədəbiyyatşünaslıqda tarixilik iki məzmunda, iki formada çıxış edir: problem və prinsip kimi! Tarixilik problemi daha çox estetik, tarixilik prinsipi isə metodoloji analyışdır"[1].

Heydər Əliyevin ədəbi-nəzəri irsində tarixiliyin hər iki işləm tərzi nəzərdən keçirilir. Lakin burada bir dəyərli cəhət də var: o, tarixilik prinsipini müasirliklə vəhdətdə götürür, tarixin həm tarixi, həm də müasir mənası üzərində düşünürdü. 1981-ci ildə Azərbaycan yazıçılarının VII qurultayında söylədiyi nitqində o demişdir: "Hər bir sənətkar öz xalqının övladıdır və onun tarixi qarşısında məsuliyyət daşıyır. Əvvəlki nəsillərin istedadı və əməyi ilə yaradılmış bütün sərvətləri mənimsəmədən..., əvvəlki təcrübəyə arxalanmadan müvəffəqiyyətlə irəli getmək olmaz. Tarix ən qüdrətli və təsirli tərbiyə vasitələrindən, şüurları və həyat mövqelərini formalaşdırmaq vasitələrindən biridir. Mədəniyyətin, milli sərvətlərin demək olar, əsas mühafizəçisi olan yazıçının yüksək vətəndaşlıq vəzifəsi xalqın tarixini onun müasir mədəniyyətinə xidmət göstərməyə cəlb etməkdir.

Açıq demək lazımdır: Azərbaycan tarixinin bir çox parlaq səhifələri bədii ədəbiyyatda layiqincə əks etdirilməmişdir"[2].

Tarix xalqın varlığının bir aynasıdır. Hər bir xalqın etnogenezi, etnoqrafiyası, bədii-fəlsəfi düşüncəsi, milli adət ənənələri, qəhrəmanlığı onun tarixində öz əksini tapır. Tarixə diqqət, qayğı və həssaslıqla yanaşmaq, onu öyrənmək, ondan ibrət dərsi almaq lazımdır. Qısa desək, tarixə tarixilik prinsipi ilə yanaşmaq gərəkdir. Heydər Əliyev tariximizə məhz belə yanaşırdı. Onun qənaətinə görə tarixi mövzuya müraciət edən yazıçı yüksək intellektə, milli təfəkkürə, böyük istedada malik olmalı idi. Əks halda o xalqın tarixini təhrif edə bilərdi. Məruzə, çıxış və məqalələri üzərində apardığımız müşahidə və araşdırmalar göstərir ki, Heydər Əliyev dilimiz və tariximizə daim diqqət yetirir, üzərində əsim-əsim əsir, onları xalqın milli-mənəvi kimliyini əks etdirən amillər kimi qorumağa çalışırdı.

Heydər Əliyevin tarixilik və müasirlik konsepsiyasında gələcək nəsillər haqqında düşüncələr, narahatlıq və nigaranlıq əsas yer tuturdu. Əslində, onun nəzəri irsi keçmişdən gələcəyə gedən bir xətti – hərəkət təlimi idi. Onun bu

---

[1]Əliyev Q. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. Bakı: Qismət, 2003, s. 119.
[2]Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı..., s.139.

barədə bir fikri belədir: “Müstəqil dövlətimiz üçün taleyüklü məsələlərin həyata keçirilməsi tariximizin bir çox qaranlıq səhifələrini açmaqla kimliyimizi tam müəyyən etməyi, milli kökləri ilə bağlı yeni təfəkkürlü gənc nəsil yetişdirilməsini zəruri edir. Keçid dövrünün çətinliklərinə, ağır proseslərinə baxmayaraq, biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddətə aça bilmiş və xalqa göstərməyə nail olmuşuq. Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi daha dərindən öyrənərək böyük qürur hissi duymağa başlayır və sözsüz ki, bununla fəxr edir”[1].

Tarixilik təkcə tarixi təsvir etməyi yox, daha çox müasir dövrü tarixi epoxa kimi təhlil etməyi nəzərdə tutur. Tarixin təcrübəsi bütün dövrlərdə lazım olan bir meyardır. Ulu öndər istər klassik irsə, istərsə də müasir ədəbi prosesə məhz bu meyarla, tarixin təcrübəsi ilə yanaşırdı. Tarixilik onun təfəkkür tərzində idi. Məhz bu tarixiliyin gücü ilə o, dialektik səviyyədə düşünür, tarixə və zamana qalib gəlməyi bacarırdı. Bunu onun tədqiqatçıları da təsdiq edir: “Heydər Əliyev – Zaman, Heydər Əliyev – Tarix münasibətlərində bir məqam da diqqəti cəlb edir: Heydər Əliyevin ideya rəqibləri həmişə və hər yerdə olub, amma ən böyük qələbəni o, zamanla əlbəyaxada qazanıb. 75 il – zamandan fəth olunan nəhəng zirvə deməkdir. Və bu zirvədə hər şey, birinci növbədə yaddaş toxunulmaz, suveren və bütöv qalıb: bu 75 ildə zaman bu yaddaşdan bir ovuc da ərazi işğal edə bilməyib”[2].

Heydər Əliyev Zamanı dəyişən, tarixə qalib gələn, onu yenidən yaratmağı bacaran tarixi şəxsiyyət, millət və dövlət başçısı idi. O, ağır tarixi bir məqamda görünməmiş bir əzmlə dövlətimizi ictimai təlatümlərdən keçirərək tarixin zirvəsinə qaldırdı. Yazıçılarla görüşlərindəki çıxışlarında Heydər Əliyev tarixə və ədəbi-tarixi keçmişə münasibətin prinsipini – tarixi yanaşmanın nümunəsini verirdi. Məsələn, Füzulinin 500 illiyi üzrə Dövlət Komissiyasının iclasındakı (1 avqust 1994) yekun sözündə demişdir: “Biz hamımız dövrün, zəmanənin övladları olduğumuz üçün onun stereotiplərindən kənara çıxa bilmirdik. Çıxmağa imkan da yox idi, çünki o zaman yazıçı da, alim də, adi adam da belə hesab edirdi ki, başqa cür ola bilməz. Ona görə də indi kiminsə döşünə döyməsi mənasızdır. Belələrinin özləri də o zaman bu cür yazmışlar. Bu, bizim tariximizin reallığıdır. Onu təhrif etmək olmaz. 1917-ci ildən sonra buna cəhd göstərirdilər. Lakin bacarmadılar. O dövrdə yaşayan və Azərbaycanın mədəniyyətini, ədəbiyyatını inkişaf etdirən adamlara indi irad tutmaq olmaz, bu, günahdır”[3].

---

[1]Heydər Əliyev və müasir Azərbaycan. Bakı: 2003, s.23.
[2]Qarayev Y. Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər. Bakı: Elm, 2002, s.134.
[3]Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı..., s. 206-207.

Gətirilən misallar və onların təhlili belə qənaətə gəlməyə imkan verir ki, tarixilik və müasirliyin vəhdəti Heydər Əliyevin ədəbi-nəzəri irsinin təməl daşıdır. Müasir siyasətçi və  dövlət xadimi, müasir alim və mütəfəkkir, ən müasir lider olaraq özü tarixiliyin və müasirliyin simvolu idi. Heydər Əliyev böyük bir istedad və ustalıqla keçmişi çəkib müasirliyə gətirir, onun ən yaxşı təcrübələrini Azərbaycanın dövlət mənafeləri ilə birləşdirirdi. Müasirlik Heydər Əliyev təliminə təkcə parlaq bir estetik kateqoriya kimi yox, böyük tarixi şəxsiyyətin qlobal düşüncə tərzi kimi daxil olurdu. Heydər Əliyev irsinin müasirliyi dünya standartları səviyyəsində idi, onun fikrini çevrələmək, hansısa romantik bir aləmə aparmaq mümkün deyildi. Söz sənətini, musiqi və teatrı, rəssamlıq və memarlığı dərindən duyan və sevən Heydər Əliyev siyasət, dövlət və cəmiyyət məsələlərində onlardan bacarıqla istifadə edirdi.

Dissertasiya işinin ikinci fəsli **“Heydər Əliyev və klassik ədəbi irs”** adlanır. Bu fəslin “**Siyasi liderin klassik ədəbi irs konsepsiyası**” adlı birinci yarımfəslində göstərilir ki, klassik ədəbi irsin tədqiqi və təbliği bütün dövrlərdə tənqid  və ədəbiyyatşünaslığımızın diqqət mərkəzində olub. Ancaq bu qiymətli bədii xəzinənin təbliği həmişə  birxətli getməmişdir. Müxtəlif dövrlərdə, ictimai-siyasi sistemlərdə klassik irsin tədqiqi ideoloji-siyasi baxışlara uyğun şəkildə aparılmışdır. Sovet hakimiyyəti dövründə 20-ci illərdən başlayaraq klassik irsin öyrənilməsində təftişçilik, ayrı-seçkilik prinsipi əsas götürülmüş, marksist ideologiyaya uyuşmayan bədii sənət nümunələri çap olunmamış, ədəbiyyat tarixlərindən kənarda qalmışdır.

Azərbaycan müstəqilikəldə etdikdən sonra bütün bunlara son qoyulmuş, realist sənət yaradıcılığı ilə yanaşı romantizm, modernizm və başqa ədəbi cərəyanların ictimai-fəlsəfi əsasları diqqətlə tədqiqata gətirilmişdir. Ancaq təəssüf ki, sovet hakimiyyəti dağıldıqdan, müstəqil dövlətimiz yarandıqdan sonra da bir sıra hallarda klassik ədəbi irsə obyektiv-tarixi mövqedən yanaşılmamasının şahidi olduq. Əgər marksist estetiklər klassik ədəbiyyatımızı millətçilikdə, dini dünyagörüşü təbliğ etməkdə ittiham edirdilərsə, bu dəfə müstəqillik illərində N.Nərimanovu, S.Rüstəmi, S.Vurğunu, R.Rzanı sovet ideologiyasına xidmət etməkdə günahlandırırdılar. Bu onu göstərirdi ki, bir ideoloji sistemdən digərinə keçiddə ən çox humanitar elm sahələri, xüsusən ədəbiyyat və sənət ziddiyyətli, ağır mərhələdən keçir. Hiss olunurdu ki, müstəqil Azərbaycanın dövlət idologiyası müəyyənləşmədən, milli humanitar siyasət formalaşmadan xalqın ictimai tarixini, ədəbiyyat tarixini obyektiv mövqedən yazmaq mümkün deyil. Bu tarixi missiyanı ümummilli lider Heydər Əliyev  yerinə yetirdi, dövlətin ideoloji əsasında azərbaycançılığın, milli təfəkkürün dayandığını konsepsiya səviyyəsində irəli sürdü. Bundan sonra azərbaycanşünas alimlərimiz R.Mehdiyev, İ.Həbibbəyli, S.Xəlilov, N.Cəfərov və başqaları

azərbaycanşünaslığın ideoloji-siyasi əsasları haqqında qiymətli əsərlər ortaya qoydular. Azərbaycan ədəbiyyatşünaslığında klassik ədəbi irsə münasibət də bu nəzəri-ideoloji sistemə uyğun şəkildə həyata keçirildi.

Klassik ədəbi irsə obyektiv-tarixi mövqedən qiymət verməyin ilk nümunələrinə də biz ümummilli lider Heydər Əliyevin N.Nərimanov, S.Vurğun, S.Rüstəm haqqında çıxışlarında, məruzələrində rast gəlirik.

Sənətkarın şəxsiyyətini Heydər Əliyev onun əməli ilə ölçür və yalnız bundan sonra ona ədəbi-tarixi dəyər verərək bildirirdi ki, yazıçı sözü xalqın əməllərinə uyğun gəlməlidir. Yazıçı öz qələmini xalqın xidmətinə vermişsə, belə bir şəraitdə onun ən mühüm vəzifəsi məhz ictimai inkişafın müqəddəratını müəyyən edən prosesləri və hadisələri ilk növbədə ifadə etməkdir[1] .

Heydər Əliyev yazıçının, sənətkarın istedadına böyük dəyər verir, eyni zamanda, yazıçı əməyini də yüksək qiymətləndirirdi. Yazıçı əməyi ən çətin, ən ağır, ən məsuliyyətli əməkdir. Sənətkar yoxdan bir var yaradır. Heydər Əliyevin fikrincə, Nizami, Nəsimi, Füzuli, Axundzadə, Ü.Hacıbəyli, Mirzə Cəlil, Sabir, H.Cavid, C.Cabbarlı belə yazıçılardan idi. Bunlar Azərbaycan ədəbiyyatı tarixində mərhələ yaratmış sənətkarlar idi. Onlar hərəsi öz dövründə yeni ədəbiyyatın poetikasını yaratmışdılar. Məsələn, Heydər Əliyev C.Cabbarlı haqqında deyirdi6 "Cabbarlının simasında Azərbaycan mədəniyyəti elə bir yeni tipli sənətkar tapdı ki, onun üçün ədəbiyyat və sənət yalnız, real həyatı əks etdirmək vasitəsi deyildi, həm də həyatın mürəkkəb inkişafına fəal müdaxilə etmək vasitəsi idi"[2].

Heydər Əliyevin ədəbiyyat konsepsiyasında ədəbi-bədii irs və varislik problemi önəmli yer tutur. O, ədəbi-bədii irsi yaradanlarla yaşadanlar arasındakı münasibətdə şəxsiyyət amilinə xüsusi üstünlük verirdi. Təbii ki, bədii irsi, klassik ədəbiyyatı böyük şəxsiyyətlər yaradır və heç şübhəsiz ki, həmin irsi sonrakı nəsillər – varislər, yeni epoxaların böyük şəxsiyyətləri daha da inkişaf etdirir. Bu yaşam yenini yaratmaqdır, həqiqi novatorluq ənənəyə münasibətin konkretliyində və onu yeni zəmanədə təqdim etmək istedaddır.

Bu fəslin **"Klassik romantik poeziyanın humanist mahiyyətinə ictimai-fəlsəfi baxış"** adlanan ikinci yarımfəslində göstərilir ki, ədəbiyyat tarixini, ədəbiyyatın ötən hər bir mərhələsini öyrənmədən, sonrakı dövrlərin irsini də, müasir ədəbi prosesin meyl və tendensiyalarını da düzgün qiymətləndirmək mümkün deyil. Tarixin təcrübəsi və tarixilik ədəbi-nəzəri, bədii-fəlsəfi təkamülün gedişatını təyin etmək üçün başlıca meyardır. Heydər Əliyevin ədəbi-tarixi münasibəti üçün səciyyəvi olan bu cəhəti akademik Bəkir

---

[1]Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı..., s.135-136.
[2]Yenə orada, s.167.

Nəbiyevbelə dəyərləndirir: "Təbiətin ona bəxş etdiyi bir çox nadir keyfiyyətlər sayəsində Heydər Əliyev uzaqgörən şəxsiyyət kimi tarixi hadisələrin gedişini irəlicədən müəyyən edə bilir, milli tarix üçün olduqca böyük əhəmiyyət daşıyan qərarlar qəbul edilən zaman əsl vətənpərvər mövqeyi nümayiş etdirir, tam qətiyyətlə hərəkət etməyi bacarırdı"[1].

Heydər Əliyevin bir mütəfəkkir kimi düşüncə yolu – tarixilik yolu idi. O, ədəbiyyat tarixinə də xalq ruhunun bədii sözdə tarixi inkişaf yolu kimi dəyər verirdi. Ədəbiyyat tarixini xalq tarixinin, ictimai tarixin bədii aynası kimi təhlil edən ümummilli lider ədəbiyyata ümumən mənəvi mədəniyyətin ideya-poetik qaynağı kimi yanaşırdı: "Ədəbiyyat bizim xalqımıza çox böyük faydalar gətiribdir. Ədəbiyyatımız bizim böyük milli sərvətlərimizdən biridir. Biz bununla fəxr etməliyik. Şəxsən mən həmişə belə hesab etmişəm, bu gün də belə hesab edirəm, daim belə düşünəcəyəm. Hesab edirəm ki, bizim ədəbiyyatımızın, bədii sözün, yazıçı, şairsözünün cəmiyyətə, millətə, xalqa təsiri böyükdür"[2].

Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlər ərzində klassiklərin yubileylərini keçirmək, onların irsini çap edib dünyaya tanıtmaq, xalqın istifadəsinə təqdim üçün qərar və sərəncamlar verirdi. 1979-cu il yanvar ayının 6-da onun rəhbərliyi ilə "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq haqqında" qərar qəbul olundu. Bu XX əsrin 40-cı illərindən sonra az qala unudulmuş dahi Nizami Gəncəvi ilə bağlı möhtəşəm proqram sənədi idi.

Heydər Əliyev uzaqgörən siyasətçi olduğu kimi, elmi-nəzəri fikir tariximizdə də uzaqgörən mütəfəkkir idi. 1981-ci ildə "840 yubiley rəqəmi deyil",- deyə ona irad tutanlara ulu öndər belə cavab vermişdi: "Nizami Gəncəvinin 840 illiyini böyük bir yubiley kimi qeyd edəndə bizə çox yerdə irad tutdular ki, 840 yuvarlaq tarix deyil. Ancaq biz sübut etdik ki, Nizami Gəncəvi elə bir şəxsiyyətdir ki, tarixdə, dünya mədəniyyətində elə bir iz qoyub getmişdir ki, onun yubileyi hər il keçirilə bilər"[3].

Nəsimi irsinin tədqiqi və təbliği sovet dövründə bir sıra çətinliklərlə bağlı idi. Tədqiqatçılardan bir çoxu Nəsimini hürufi dünyagörüşdən, panteist

---

[1]Heydər Əliyev və Azərbaycan ədəbiyyatı (Azərbaycan Yazıçılar Birliyinin 75 illiyinə həsr olunur. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu). Elmi redaktoru: akademik B.Nəbiyev. Bakı:Şərq-Qərb, 2009, s.11.

[2] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. On üçüncü kitab: oktyabr, 1997, dekabr, 1997.Bakı:Azərnəşr, 2004, s.95.

[3] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Birinci kitab: iyun, 1993 - may, 1994. Bakı: Azərnəşr, 1997, s.156.

baxışlardan uzaqlaşdırıb, marksist ideologiyaya uyğunlaşdırmağa cəhd edirdilər. Xaqani, Nizami, Nəsimi, Füzuli ... kimi dünya şöhrətli klassiklər təkcə ədəbi yox, həm də tarixi-fəlsəfi örnəklərdir. Ümumiyyətlə, ədəbiyyat təkcə xalqın mənəvi aləmini, düşüncə tarixini əks etdirməklə kifayətlənməyib, həm də tarixin yoluna çıraq tutub, bu yolu işıqlandırıb. Çox zaman böyük şəxsiyyətlər ədəbiyyat, bədii söz vasitəsi ilə tarixə daxil olublar. Heydər Əliyev də belə idi. O, hakimiyyətə qayıtdığı ilk günlərdə deyirdi: "Bizim mədəniyyətimiz, elmimiz çox zəngindir. Biz Nizamidən, Füzulidən danışarkən onları təkcə şair kimi deyil, böyük filosoflar kimi, dünyaya, dünya mədəniyyətinə, elminə böyük töhfələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq"[1].

Nəsimi ilk Azərbaycan şairidir ki, 1973-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə 600 illik yubileyi YUNESKO xətti ilə bütün dünyada qeyd olunub. Məhz bu yubiley tədbirləri çərçivəsində onun əsərlərinin tənqidi mətni professor Cahangir Qəhrəmanov tərəfindən hazırlanıb üç cilddə çap edildi. Şairin seçilmiş əsərləri, məqalələr toplusu, akademik H.Araslının bir neçə dildə "Nəsimi" kitabçası, M.Quluzadənin "Böyük ideallar şairi" kitabı işıq üzü gördü. Xalq şairi Qabil "Nəsimi" poemasını, xalq yazıçısı İ.Hüseynov "Məhşər" romanını yazdı, bu roman əsasında ən yaxşı tarixi filmlərimizdən olan "Nəsimi" çəkildi.

Yeni istiqlal tariximizdə iki bəşəri ədəbi hadisə – bir "Kitabi-Dədə Qorqud" eposunun 1300, bir də Füzulinin 500 illik yubileyi Heydər Əliyevin klassik irsə münasibətinin zirvə məqamlarıdır. Məhz bu kontekstdə yanaşdıqda onun Mirzə Cəlilə, Ü.Hacıbəyliyə, H.Cavidə, C.Cabbarlıya, S.Vurğuna – XX əsrin klassik söz ustalarına münasibətinin səciyyəsi də ortaya çıxır. Heydər Əliyevin ədəbi-nəzəri görüşləri üzü "Kitabi-Dədə Qorqud"dan bəri 1300 illik möhtəşəm bir tarixin ədəbi taleyinə işıq salır: "Kitabi-Dədə Qorqud" bizim ana kitablarımızdır. Dədə Qorqud bizim ulu babamızdır, əcdadımızdır. Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" kimi tarixi abidəmiz vardır, fəxr edirik ki, Dədə Qorqud kimi ulu əcdadımız vardır.

"Kitabi Dədə Qorqud" xalqları, millətləri daim birliyə, sülhə dəvət edibdir... "Kitabi Dədə Qorqud"un birliyə çağırışı bu gün hər birimiz üçün lazımdır.

Bizim xalqımız bu gün "Kitabi Dədə Qorqud"un bu vəsiyyətlərinə sadiqdir. Məhz müstəqillik dövründə "ana kitabımız" Heydər Əliyevə bütün

---

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Birinci kitab: iyun, 1993 - may, 1994. Bakı: Azərnəşr, 1997, s.157.

türkləri birləşdirmək, Azərbaycanın türk tarixindəki önəmli rolunu göstərmək üçün lazım idi. Azərbaycan türklərinin təfəkkür səviyyəsi "Kitabi Dədə Qorqud"da olduğu qədər heç bir ədəbi-bədii əsərdə öz əksini tapmamışdır. Bu, türklərin təkcə qəhrəmanlıq tarixi, zəfər tarixi yox, həm də dövlətçilik tarixi, mənəvi qüdrət tarixi – ucalıq abidəsidir. Eləcə də Heydər Əliyev dahi Füzuliyə və onun yaradıcılığına tarixən də, XX əsrin sonu – III minillik öncəsi də türkləri birləşdirən şair, poeziyada ümumtürk təfəkkürü hadisəsi kimi baxırdı: "Ərəblər və farslar Füzulini öz şairləri sayırlar. Türkdilli xalqlar isə belə hesab edirlər ki, o, türkdür. Biz də deyirik ki, Füzuli türk, azərbaycanlıdır. Eyni zamanda, bunu türkmən, özbək, qazax, Türkiyədə yaşayan türklər, İraq türkmanları da deyə bilərlər. Qoy Füzuli hamıya məxsus olsun, tarixə bəşəri bir şəxsiyyət kimi düşsün"[1].

Heydər Əliyevin N.Nərimanova münasibəti əslində N.Nərimanov uğrunda mübarizə idi. O, bir dövlət xadimi kimi N.Nərimanovun düşdüyü tarixi şəraiti gözəl bilirdi. Ümumən Ulu öndər bədii irsdən xalqın birliyini, tarixi ifadəsini, milli qürur hissini gücləndirmək üçün bacarıqla istifadə edirdi. Heydər Əliyevin nəzəri görüşlərində tarixilik duyğusu çox güclü idi. O istər ədəbi, istərsə də siyasi şəxsiyyətlərə yaşadıqları dövrün tarixi kontekstində qiymət verir və məhz bunu da başqalarından tələb edirdi. 21 sentyabr 1993-cü ildə Azərbaycan Elmlər Akademiyasında ziyalılarla görüşü zamanı o, bu istiqamətdə olduqca dəyərli fikirlər söyləmişdir: "Xalqımızın böyük şəxsiyyətlərinin həm yaradıcılığı, həm də Azərbaycan xalqı qarşısındakı xidmətlərini daim tədqiq etmək, şübhəsiz ki, mühüm vəzifələrdən biridir... Tariximizdə hər bir şəxsiyyətin öz yeri var... tarixi təhrif etmək lazım deyil... Eləcə də şəxsiyyətləri itirmək olmaz... Nəriman Nərimanov öz dövrünün yaşadığı mühitin çərçivəsində böyümüş görkəmli simadır, böyük siyasi xadimdir... Tarixi təhrif edənlər xalqa xəyanət edir, onu çaşdırırlar"[2].

Beləliklə, tarixilik bir metodoloji prinsip kimi Heydər Əliyevin nəzəri-estetik meyarlarında başlıca yer tutur, ona obyektiv həqiqətləri üzə çıxarmaqda kömək edirdi. O, vaxtilə M.Ə.Rəsulzadəni, məşhur sərkərdə Ə.Şıxlinskini, Mehmandarovu qorumuş N.Nərimanovu, müsavatçı C.Cabbarlını da beləcə tarixilik mövqeyindən – tarixin təcrübəsinə istinadən qiymətləndirirdi.

---

[1]Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı: nitqlər, məruzələr, çıxışlar. Tərtib edəni: V. Quliyev. Bakı: Ozan, 1999, s.204; yenə onun: Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. İkinci kitab: may, 1994 - dekabr, 1994. Bakı: Azərnəşr, 1997, s.93.

[2] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Birinci kitab: iyun, 1993 - may, 1994. Bakı: Azərnəşr, 1997, s.158-159.

Ümumiyyətlə, Ulu öndər Azərbaycanda rus istilası dövrünün – XIX-XX əsrlərin tarixinin, o cümlədən ədəbiyyat və mədəniyyət tarixinin bolşevik – kommunist ideologiyasının tələbləri ilə yox, müstəqil Azərbaycanın milli maraqları mövqeyindən yazılmasını zəruri sayır, tarixin təhrif olunmasını cinayət, milli faciə kimi mənalandırırdı. Şəxsiyyətin bioqrafiyası, taleyi xalqın tarixindən ayrılmazdır. Şəxsiyyəti öz tarixindən ayırmaq nəhəng ağacı kökündən qoparmaq kimidir, buna yol verməк olmaz.

Bu fəslin "**Məhəmməd Füzulinin ədəbi irsinə Heydər Əliyevin verdiyi qiymət**" adlı üçüncü yarımfəslində göstərilir ki, Azərbaycan klassik bədii ədəbiyyatı hər zaman Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. O, ən çətin dövlət vəzifələrini icra edəndə də, ağır diplomatik missiyaları yerinə yetirəndə də həmişə klassiklərlə maraqlanmış, onların ədəbi-tarixi əhəmiyyətini ön plana çəkmişdir. Elə buna görə də "Klassik irsimizə, klassik ədəbiyyatımıza və onun nümayəndələrinə böyük diqqət və qayğı göstərən, bu ədəbiyyatın ictimai inkişafda, yeni insan tərbiyəsində oynadığı rolu yüksək qiymətləndirən və buna görə də onların sənətinin ölməzliyinin qarantı kimi çıxış edən Heydər Əliyevin özü də klassiklərin cərgəsinə daxil olmuş, onlar kimi ölməzlik qazanmışdır"[1].

Heydər Əliyevin klassik irs təlimində dahi qəlb şairi Məhəmməd Füzuli xüsusi yer tutur. Şairin 1994-cü ildə tamamlanan 500 illiyini dünya miqyasında ədəbi hadisə kimi qeyd etmək uğrunda fəal çalışan qüdrətli lider 1996-cı ilə kimi dəfələrlə şairin yaradıcılığına müraciət etmiş, böyük bir monoqrafiya yazmağa imkan verən fikirlər söyləmişdir. Heydər Əliyev Füzulinin ədəbi-tarixi mövqeyinə və bənzərsiz poeziyasına ümumtürk və bir çox hallarda ümumbəşəri kontekstdə yanaşırdı.

Böyük Füzulinin yubileyinin keçirildiyi günlər Azərbaycanda mürəkkəb ictimai-tarixi dövrə təsadüf edir. Buna baxmayaraq yubiley komissiyası təsis olundu, şairin həyat və yaradıcılığı əsasında yeni əsərlər meydana çıxdı, aydın olmayan bəzi məqamlar, xüsusən sufiliyin bədii estetik və fəlsəfi sistemi ətrafında ciddi elmi diskusiyalar aparıldı, ictimai fikir yenidən bu böyük sənətkarın bədii-fəlsəfi irsinə yönəldildi. Xüsusən "Maarif" nəşriyyatı tərəfindən buraxılan "Seçilmiş əsərləri" yubiley ərəfəsində tədqiqatçılara yeni elmi mövzular üçün imkan yaratdı. Bu yeni nəşr mükəmməlliyi və əhatəsinə görə əvvəlki nəşrlərdən çox fərqlənirdi. Burada şairin Azərbaycan, fars dillərində yazdığı əsərləri və bəzi əsərlərindən müəyyən hissələr nəşr olunmuşdu. Yubiley ərəfəsində füzulişünas Sabir Əliyevin "Füzulinin

---

[1]Heydər Əliyev və Azərbaycan ədəbiyyatı..., s.203.

poetikası" əsərinin nəşri bu sahədəki tədqiqatları bir növ yekunlaşdıraraq füzulişünaslığa yeni bir töhfə verdi.

Bütün bu tədqiqat əsərləri, füzulişünaslığın yeni mərhələsi Heydər Əliyevin dahi Füzuliyə böyük qiymət verməsinin nəticəsi idi. Dövlət yubiley komitəsinin sədri kimi komissiyaya nüfuzlu, tanınmış elm və mədəniyyət xadimlərini daxil etmişdi. Xarici ölkələrdə, Azərbaycanın ayrı-ayrı rayonlarında yubileylə bağlı müxtəlif tədbirlər keçirilmişdi. Xüsusən Türkiyədə, İraqda, İranda, Rusiyanın mərkəzi şəhərlərində və başqa ölkələrdə keçirilən tədbirlərdə Azərbaycan alimləri də iştirak etmiş, şairin bədii-fəlsəfi yaradıcılığının ideya-məzmun cəhətləri hərtərəfli şəkildə dünyaya çatdırılmışdır. Tədbirin YUNESKO-nun Baş qərargahında keçirilməsi isə şairin yaradıcılığının nə dərəcədə milli və ümumbəşəri mahiyyət daşımasından xəbər verir.

1996-cı il noyabr ayının 8-də Bakıda "Füzuli – 500" Zirvə tədbirində Heydər Əliyev şairin yaradıcılığının bədii-estetik, ictimai-fəlsəfi qatlarına müraciət edərək, onun yaradıcılığında fəlsəfi mətləblərlə poetik məqamların üzvü şəkildə birləşdiyini özünəməxsus şəkildə xalqa çatdırmışdır.

Heydər Əliyev Füzulinin yubileyinin keçirilməsinə böyük önəm verərək bu tədbiri Azərbaycan xalqını dünyaya bir daha tanıtmaq hadisəsi kimi qiymətləndirirdi: "Respublikamızın bu ağır dövründə böyük yubileylər keçirilməsi, şübhəsiz ki, müəyyən qədər çətinliklərlə üzləşəcək. Ancaq bunlara baxmayaraq, həyatımızın mənəvi-mədəni sahəsi heç vaxt unudulmamalıdır. Çətinliklər nə qədər çox olsa da mədəniyyətə, mədəni irsimizə, mənəviyyata daim xüsusi diqqət yetirməli və bu sahələrin geri qalmasına yol verməməliyik.

Dahi Füzulinin 500 illik yubileyinin keçirilməsi böyük mütəfəkkir şairin Azərbaycan xalqı qarşısında və bütün türk xalqları, dünya mədəniyyəti qarşısındakı xidmətlərinə verilən qiymətdir"[1].

Tarix Heydər Əliyev zəkasının əzəmətini təsdiq etdi, Füzuli yubileyi həm Azərbaycanda, həm bütün türk-islam aləmində, həm də Rusiya və Avropada böyük təntənə ilə keçirildi. Heydər Əliyevin uzaqgörənliyi bunda idi ki, Füzuli həm özünü, həm də Azərbaycanı bir daha dünyaya tanıtdı, həm də və bizcə başlıcası budur ki, totalitar sovet ideologiyası və imperiyaçı rejim sayəsində pərən-pərən düşmüş türk xalqlarını yeni tarixi şəraitdə birləşdirə bildi.

Heydər Əliyevin ədəbi-tarixi proses konsepsiyasına M.Füzuli bütün türk xalqlarının böyük şairi kimi daxil olur və bu tarixən olduqca düzgün qiymətdir. Ulu Öndər Füzuli irsini "Azərbaycan xalqının, türk dünyasının, türk xalqlarının

---

[1]Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı..., s. 201.

bu günü və gələcəyi üçün böyük örnək"[1]kimi dəyərləndirirdi.

Heydər Əliyev Türkiyə Böyük Millət Məclisindəki çıxışında demişdir: "Füzuli keçmişdə də türkləri birləşdirən bir şəxsiyyət olmuşdur. Amma indi türk dünyası XX əsrdə parçalanmış olduğu bir halda, qədim türk dünyasına mənsub ölkələrin demək olar ki, tam əksəriyyətini (bir Türkiyədən savayı) onların həyatına, tarixinə, adət-ənənəsinə uyğun olmayan rejimlər içərisində yaşadığı vaxtda Füzuli bizi yaşadaraq, bu günlərə gətirib çıxarmışdır"[2].

Heydər Əliyevin Füzuli ilə bağlı görüşləri onun ümumiyyətlə, klassik irsə münasibətinin miqyasını əks etdirir. Heç şübhəsiz ki, tarixilik və müasirliyin vəhdəti onun klassik irsə münasibətinin metodoloji əsasını müəyyənləşdirir. Əslində bu, klassik irsi müasirliyin dili ilə oxumaq nümunəsidir. Füzuliyə münasibətdə Heydər Əliyev zəkası ilə Füzuli dühası bir-birini üzvi şəkildə tamamlayır. Füzuli dühasının mahiyyətini açmaq və bütün cahana göstərməyin metodologiyasını XX əsrdə Heydər Əliyev müəyyənləşdirmişdir. Bu konsepsiya uzunömürlüdür və əsrlərcə öz prinsiplərinin əsaslılığını qoruyub saxlayacaqdır.

Dissertasiya işinin üçüncü fəsli **"XX əsr ədəbiyyatı: mərhələlər və şəxsiyyətlər"** adlanır. Bu fəslin "**Ədəbi şəxsiyyət amilinə münasibətdə yeni elmi meyarlar"** adlanan birinci yarımfəslində göstərilir ki, Heydər Əliyevin ədəbi-tarixi proses haqda metodoloji konsepsiyasına XX əsr bütöv – həm ictimai-tarixi ziddiyyətləri, həm də elmi-nəzəri və bədii fəlsəfi nailiyyətləri ilə birlikdə daxil olur. Bu baxımdan o, XX əsri ən yaxşı bilən, müxtəlif parametrlərdən təhlil edən, 60-cı illərin sonundan etibarən isə, obrazlı desək, Azərbaycanın XX əsrini idarə edən qüdrətli tarixi şəxsiyyət olmuşdur. O, XX əsrin ədəbiyyat və mədəniyyətini əsrin özü ilə vəhdətdə təhlil edirdi.

Ulu öndər XX əsrin son qərinəsində Azərbaycanda dövlətçiliyin tərkib hissəsi olaraq ədəbiyyat və mədəniyyətə rəhbərlik etmiş, onu əzmlə idarə etmişdir. Burada iki başlıca cəhət var: biri budur ki, Heydər Əliyev xalq tarixinin, milli mənəviyyatın ifadəsi olaraq ədəbiyyat və mədəniyyəti sevirdi; ikincisi budur ki, o, ədəbiyyat və incəsənətin estetik təsir gücünü yüksək qiymətləndirirdi.

XX əsrin ədəbi şəxsiyyətləri ilə bağlı Heydər Əliyevin maraqlı seçimləri diqqəti cəlb edir. O, əsrin ilk onilliklərinin görkəmli simalarından bəhs edərək deyirdi ki, bizim XX əsr ədəbiyyatımızda ən fəxr etdiyimiz şəxsiyyətlər Sabirdir, Cəlil Məmmədquluzadədir. Ümumiyyətlə, XX əsr elə başlanandan sonunadək çox çətin bir əsr, ağır bir dövr oldu. Heydər Əliyev XX əsrin ilk

---

[1]Yenə orada, s. 217.
[2]Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı..., s. 221.

onilliklərində Sabiri, Mirzə Cəlili, Cəfər Cabbarlını və Hüseyn Cavidi xüsusi fərqləndirirdi. Sovet dövrü poeziyamızdan bəhs edərkən isə bildirirdi ki, Səməd Vurğun və Rəsul Rza ilə birlikdə Süleyman Rüstəm ədəbiyyatımızın tarixinə Azərbaycan sovet poeziyasının banilərindən biri kimi daxil olmuşdur.

Heydər Əliyevin ədəbi-tarixi proses konsepsiyasına XX əsrin əvvəlində milli-mənəvi intibahı hazırlayan şəxsiyyətlər kimi Mirzə Cəlil, M.Ə.Sabir, Ü.Hacıbəyli, N.Nərimanov, C.Cabbarlı, H.Cavid daxil olur. O, XX əsr Azərbaycan realizminin görkəmli nümayəndələrindən olan C.Məmmədquluzadə yaradıcılığını həmişə yüksək qiymətləndirib, XX əsr realist Azərbaycan ədəbiyyatının yaranması və formalaşmasındakı roluna əhəmiyyət verib.

O, ədəbi şəxsiyyətlərə qiymət verərkən tarixiliyə ciddi əməl edir, tarixi konteksti metodoloji amil kimi diqqətlə nəzərə alırdı. Heydər Əliyevin nəzəri-tarixi konsepsiyasında Mirzə Cəlil və Hüseyn Cavid eyni ədəbi-tarixi kontekstdə nəzərdən keçirilir. Ulu Öndər əsrin əvvəllərində yetişmiş böyük şəxsiyyətlərdən Mirzə Cəlilə, Ü.Hacıbəyliyə, M.Ə.Sabirə, N.Nərimanova, H.Cavidə və C.Cabbarlıya xüsusi əhəmiyyət verir.

Heydər Əliyevin təhlil metodologiyasında, estetik dəyər meyarlarında tez-tez işlətdiyi bir fikir var: sənətkara öz dövrünün kontekstində dəyər vermək. O, Cəlil Məmmədquluzadəyə də, S.Vurğuna da yaşadıqları zamanın çevrəsində qiymət verirdi. Məsələn: "Şübhəsiz ki, Səməd Vurğunun əsərləri öz dövründə yazılıbdır. O dövrün hökmü, tələbləri Səməd Vurğunun əsərlərində də öz əksini tapıbdır"[1] deyirdi.

Heydər Əliyevin ədəbi-tarixi prosesə dair görüşlərinin xarakterik cəhətlərindən biri də bu idi ki, o, ədəbiyyata, yaradıcılığa bitərəf sosioloji meyarlarla yanaşmır, sırf poetik-psixoloji məsələləri də həssaslıqla nəzərə alırdı. Yazıçının işlətdiyi sözlərin düzümü, intonasiyası belə onun nəzərindən qaçmırdı. Yazıçı idealına, onun üslubu ilə daxili dünyası arasındakı qırılmaz əlaqəyə o, çox aydın nəzərlə baxaraq dəyər verirdi. Onun dahi bəstəkarımız Ü.Hacıbəyov haqqında dediyi fikir bunun bariz nümunəsidir: "Ü.Hacıbəyov fövqaladə fitri istedadı, böyük fədakarlığı, mükəmməl təhsili, elmi, vətənpərvərliyi, ictimai-siyasi fəaliyyəti ilə xalqımızın böyük şəxsiyyətlərindən biri olmuş, dünya korifeylərinin ön sırasında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur"[2].

---

[1]Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı..., s. 363-364.

[2] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Dördüncü kitab: iyun, 1995 - noyabr, 1995. Bakı: Azərnəşr, 1997, s.275.

Heydər Əliyev XX əsrin özünə obyektiv mövqedən yanaşırdı. O, dönə-dönə qeyd edirdi ki, 1920-ci ildən 1990-cı ilə qədər davam edən sovet dövrü ərzində tariximiz təhrif edilmişdir. O cümlədən vaxtilə müsavatçı, türkçü olduqlarına görə, hətta Ü. Hacıbəyov, C.Cabbarlı kimi sovet mədəniyyəti və ədəbiyyatının qüdrətli yaradıcıları sonralar da suçlanmışlar. 1993-cü ildə Elmlər Akademiyasında ziyalılarla görüş zamanı o, XX əsrin 20-ci illərində ziddiyyətlər burulğanına düşmüş N. Nərimanov, Ü. Hacıbəyov, C. Cabbarlı kimi sənətkarlara obyektiv tarixi qiymət verirdi. O, dahi sənətkarlarımızı həm xalqına xidmətinə, həm də öz millətini dünyada tanıtmasına, ona şöhrət gətirməsinə görə yüksək qiymətləndirirdi.

Bu fəslin "**Heydər Əliyevin irsində sənətkar taleyi və sənət problemi"** adlı ikinci yarımfəslində göstərilir ki, dünya romantizminin görkəmli nümayəndəsi, Azərbaycan ədəbiyyatında romantizm cərəyanının banisi Hüseyn Cavid həmişə Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. 1982-ci ildə H.Cavidin cənazəsini uzaq Sibirdən gətirməsi və doğma Naxçıvan torpağında dəfn etdirməsi, içərisində bu gün Cavidlərin birgə uyuduğu möhtəşəm məqbərənin tikilməsi Heydər Əliyevin böyük qəhrəmanlığı, misilsiz rəşadəti, təkcə Cavidə deyil, ümumən Azərbaycan ədəbiyyatına, bədii-ictimai fikrinə tarixi ehtiramıdır. O, 1995-ci ildə Hüseyn Cavidin məqbərəsinin və ev muzeyinin yaradılmasına həsr edilmiş müşavirədə demişdir: "Bilirsiniz ki, Hüseyn Cavidin həyatı, yaradıcılığı Azərbaycan üçün nə qədər dəyərli, əhəmiyyətli olub, onun qoyduğu ədəbi-mənəvi irs bizim üçün nə qədər əhəmiyyətli və gərəklidir. Eyni zamanda onun həyatı faciəli olubdur. Ancaq bu faciəli dövrlər onun yaradıcılığını Azərbaycan xalqının qəlbindən çıxara bilməyib, yaşadıbdır"[1].

Heydər Əliyevin XX əsr Azərbaycan romantizminin görkəmli siması, romantik şair və filosof H.Cavid haqqındakı fikirləri müasir cavidşünaslığın metodoloji əsaslarını müəyyən edir: "Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişaf etməsində misilsiz xidmətlər göstərmişdir. Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır. Hüseyn Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad, müstəqil xalq etməkdən ibarət olubdur. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çatdırıbdır.

---

[1] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Dördüncü kitab: iyun, 1995 - noyabr, 1995. Bakı: Azərnəşr, 1997, s.5.

O, həmişə öz iradəsi ilə yaşamış, öz iradəsinə, millətinə sadiq olmuşdur, millətini, xalqını həddindən artıq sevmiş və millətinə həddindən artıq xidmət edən bir insan olmuşdur”[1].

Bütün bunlar romantik şair və filosof kimi Hüseyn Cavidin şəxsiyyətini ucaldan, onun yaradıcılığının milli-tarixi və bədii-fəlsəfi əhəmiyyətini əks etdirən cəhətlərdir. Heydər Əliyevin bu fikirləri H.Cavid yaradıcılığına dərindən nüfuz etməyə imkan verir.

Belə əbədiyaşarlığı hər şeydən öncə H.Cavid özü qazanıb. Heydər Əliyevin Hüseyn Cavid uğrunda mübarizəsi isə Ulu öndərin bizim klassik bədii irsimizə, mədəniyyətimizə qayğıkeşliyinin, böyük sevgisinin parlaq ifadəsi, tarixi bir səhifəsidir.

Heydər Əliyev H.Cavid irsinin ölməzliyinə böyük inam bəsləyirdi: “Vaxt var idi, Hüseyn Cavidi həbs etdilər və onun bütün əsərlərini qadağan etdilər. Hüseyn Cavid həbs olunandan, hətta dünyasını dəyişəndən sonra onu millətçi, pantürkist, antisovet adam adlandırırdılar. Amma Hüseyn Cavidin əsərləri yaşadı...”[2]

Milli müstəqillik dövründə isə H.Cavid yaradıcılığına daha çox diqqət yetirildi. İkinci dəfə Azərbaycanda müstəqil dövlətin prezidenti olan Heydər Əliyev yenidən H.Cavid yaradıcılığının geniş yayılması, ictimaiyyət arasında daha çox tanınması üçün xeyli tədbirlər həyata keçirdi. O, H.Cavid yaradıcılığına sadəcə olaraq bir dövlət rəhbəri kimi yanaşmır, peşəkar tənqid və ədəbiyyatşünaslıq meyarları ilə qiymət verirdi: “İndi Hüseyn Cavidin əsərləri xalqa hava-su kimi lazımdır. Təkcə ədəbi baxımdan deyil, həm də fəlsəfi, elmi baxımdan lazımdır. Lakin bu əsərlər lazımi səviyyədə nəşr olunmuşdurmu? Hüseyn Cavidi Şərqin Şekspiri adlandırırlar. Ancaq onu bəlkə də Höte ilə müqayisə etmək düzgün olardı. Əsərlərindəki fəlsəfi fikirlərinə görə, ola bilsin, Cavid Şekspirdən də yüksək səviyyəyə qalxmış bir adamdır. Hüseyn Cavidin “İblis” əsəri heç də Hötenin “Faust”undan geri qalmır. Ancaq biz insanları lazımi qədər qiymətləndirə bilmirik”[3].

Heydər Əliyevin Cavid taleyinə münasibəti, siyasi liderin, dövlət başçısının mənsub olduğu xalqın klassik irsinə, mənəvi mədəniyyətinə münasibətinin ən yaxşı nümunəsidir.

Bu fəslin “**Heydər Əliyevin ədəbi-nəzəri görüşlərində insan və**

---

[1] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr.Yeddinci kitab: iyun, 1996 - noyabr, 1996.Bakı:Azərnəşr, 1998, s.472.

[2] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr**.** Dördüncü kitab: iyun, 1995 - noyabr, 1995. Bakı: Azərnəşr, 1997, s.13-14.

[3] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. Birinci kitab: iyun, 1993 - may, 1994. Bakı: Azərnəşr, 1997, s.160.

**zaman problemi**" adlanan üçüncü yarımfəslində göstərilir ki, XX əsrin ədəbi-tarixi prosesində ən uca zirvədə H.Cavid, Ü.Hacıbəyli, C.Cabbarlı, öz qeyri-adi istedadı və şəxsiyyəti ilə Səməd Vurğun qərarlaşır. S.Vurğun təkcə Azərbaycan şerinin, ümumsovet ədəbiyyatının deyil, dünya poeziyasının böyük simalarından biridir. Buna görə də təbii olaraq onun irsi və şəxsiyyəti Heydər Əliyevin ədəbi-tarixi proses təlimində əsas yerlərdən birini tutur. Heydər Əliyev XX əsr şairləri içərisində S.Vurğunu və M.Şəhriyarı çox sevirdi. O, S.Vurğunun "Azərbaycan" şerini deyəndə həmişə kövrəlirdi. Elə bilirik ki, Heydər Əliyevin milli ideologiyamız olan - azərbaycançılıq fəlsəfəsinin əsasında bu proqram xarakterli şeir dayanır. O deyirdi: "Gənc vaxtlarımdan Səməd Vurğunun şeirlərini, əsərlərini sevərək, onların təsiri altında həm təhsil almışam, həm formalaşmışam. Ona görə də onun ədəbi irsinə Azərbaycanda həmişə böyük hörmət edilməsi üçün və ondan istifadə olunması üçün bütün imkanlardan istifadə edib, lazımi tədbirlərin görülməsinə çalışmışam"[1].

Böyük həyat həqiqəti ilə süslənmiş bu səmimi etiraf bir daha sübut edir ki, ümumiyyətlə Heydər Əliyevin ədəbiyyatımıza münasibətinin ali prinsipi onun milli-mənəvi sərvət olmasına inamıdır. Heydər Əliyev S.Vurğuna dünya poeziyası kontekstində qiymət verirdi. Mülahizələrindən biri belədir: "Səməd Vurğuna Azərbaycan xalqının hədsiz məhəbbəti, hörmət və ehtiramı məlumdur. XX əsrdə mədəniyyətimizdə, ədəbiyyatımızda, ictimai-siyasi həyatımızda Səməd Vurğunun xidmətləri olduqca böyükdür və ona görə də xalq onu sağlığında da sevib, ona sitayiş edib. İndi artıq 40 ildir ki, o, dünyasını dəyişib, ancaq xalq nəinki onu unutmur, daim onun yaradıcılığından bəhrələnir, onun əsərlərini sevə-sevə oxuyur, onun əsərlərinin təsiri altında tərbiyələnir. Bu gün müstəqil Azərbaycanda milli azadlıq şəraitində, müstəqilik şəraitində Səməd Vurğunun əsərləri bizim hamımız üçün və xüsusən gələcək nəsil üçün, bu günün gənc nəsli üçün böyük bir sərvətdir"[2].

Heydər Əliyevin S.Vurğuna münasibətində iki cəhət vəhdət təşkil edirdi: biri ictimai-tarixi, ikincisi, ruhi-mənəvi. O bir mülahizəsində deyirdi: "Səməd Vurğun dövrünün, zəmanəsinin mühitində, çərçivəsində yazıb, yaradıb və Azərbaycan xalqı qarşısında əvəzsiz xidmətlər göstəribdir. Azərbaycan ədəbiyyatını, mədəniyyətini, dünya ədəbiyyatını zənginləşdiribdir. Fitri, parlaq istedadı, çox nadir xüsusiyyətlərə malik olan istedadı, eyni zamanda, ən gənc yaşlarından yazıb yaratmaq əzmi Səməd Vurğunu qısa bir zamanda xalqımızın sevimli şairinə çevirmiş və o, həm Azərbaycanda, həm də

---

[1]Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı ..., s.305.
[2]Yenə orada, s.302-303.

bir çox xarici ölkələrdə tanınmış, sayılan bir insan olmuşdur”[1].

Səməd Vurğun öz dövrünün böyük şairi olubdur. O, Azərbaycan şeirinə çox böyük yeniliklər gətiribdir. Bu yeniliklər çoxdur: Səməd Vurğun yeni bədii ifadə sistemi, yeni poetika yaratdı. Böyük Heydər Əliyev doğru qeyd edir ki, şairin Azərbaycan şeirinin poetikasına gətirdiyi ən böyük yenilik şeir dilini xalq dilinə maksimum yaxınlaşdırması idi. Dilə münasibət Heydər Əliyevə görə şairin sənətkarlıq meyarıdır. Onun fikrincə, “Səməd Vurğunun şeiri Azərbaycan dilini zənginləşdiribdir, inkişaf etdiribdir. Azərbaycan dilini hər bir azərbaycanlı üçün doğma, sevimli, şirin edibdir. Bu da Səməd Vurğunun Azərbaycan xalqı qarşısında göstərdiyi böyük xidmətlərdən biridir. Səməd Vurğun şerinin böyüklüyü, eyni zamanda gözəlliyi ondan ibarət idi ki, onun hər kəlməsi, hər sətri hər bir azərbaycanlının qəlbinə çatırdı, onun beynini fəth edirdi, onu öz təsiri altına salırdı[2].

Heydər Əliyev S.Vurğunu Azərbaycan xalqının simvolu hesab edir, onun ümumittifaq miqyasında şöhrətini, tanınmasını xüsusən yüksək dəyərləndirir, yaradıcılığını N.Gəncəvi, Y.İmrə, M.Füzuli, M.P.Vaqif, M.Ə.Sabir yaradıcılığı ilə müqayisə edir, əsərlərinin əxlaqi-mənəvi əhəmiyyətini ayrıca qeyd edirdi. Şairin ev muzeyinin açılması, yubiley tədbirlərinin yüksək səviyyədə keçirilməsi də ümummilli liderin şəxsi təşəbbüsü ilə həyata keçirilib.

Səməd Vurğun yaradıcılığına Heydər Əliyevin məhəbbəti onun ictimai-siyasi baxışlarından, ədəbi-tarixi proses konsepsiyasından irəli gəlirdi. Sənətdə həmişə milli özünüdərkə diqqət etdiyinə, məfkurəvi cəhətlərə əhəmiyyət verdiyinə görə Azərbaycan klassik və müasir ədəbiyyatına da həmin prinsipdən yanaşırdı.

Səməd Vurğun “Azərbaycan” şeirini yazdı və azərbaycançılığı milli ideologiya, dövlətçiliyin əsası kimi dəyərləndirmişdi. Dövrün, zamanın sonrakı mərhələləri göstərdi ki, əslində S.Vurğunun tutduğu yol daha doğru, daha perspektivlidir. Ümummilli liderimiz ikinci dəfə hakimiyyətə qayıdandan sonra bu məsələni ümumxalq müzakirəsinə çıxartdı və sonda belə qəti qərara gəldi ki, müstəqil Azərbaycan dövlətinin ideoloji siyasəti əsasında azərbaycançılıq dayanır və bu ideologiya Azərbaycanda yaşayan müxtəlif xalqları bir bayraq altında birləşdirir. S.Vurğun irsinə Heydər Əliyevin məhəbbəti bu ictimai-siyasi amildən qaynaqlanır.

Səməd Vurğun yaradıcılığı XX əsrdə ədəbi-bədii dilin yeni mərhələsi

---

[1]Yenə orada, s. 360.

[2]Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı ..., s.361.

idi. Heydər Əliyev bu cəhəti xüsusi bir həssaslıqla ön plana çəkir, Səməd Vurğun ana dilimizi – Azərbaycan dilini təkmilləşdirib inkişaf etdiribdir, deyirdi. Bu Səməd Vurğunun ən böyük xidmətlərindən biridir. İndiki dilimiz – türk dilləri qrupuna məxsus olan Azərbaycan dili, türk dillərinin kökündən gələn Azərbaycan dili məhz Səməd Vurğun kimi şəxsiyyətlərin yaradıcılığı nəticəsində bu qədər gözəlləşib, bu qədər zənginləşib, səlisləşib, şirinləşibdir.

Heydər Əliyev Səməd Vurğunu bir alim kimi də yüksək qiymətləndirirdi. Məlumdur ki, şair 1945-ci ildə Azərbaycan Elmlər Akademiyası yarananda seçilən ilk akademiklərdən biri, sonralar isə Akademiyanın vitse-prezidenti olub. Heydər Əliyev yazıb: "Səməd Vurğun eyni zamanda böyük alim, filosof idi. Səməd Vurğun Azərbaycan Elmlər Akademiyasının təsisçilərindən, yaradıcılarından biridir. Səməd Vurğun Elmlər Akademiyasının yaradılmasının təşəbbüsçülərindən biridir. O, sadəcə akademik seçilmiş bir adam deyil. Səməd Vurğun və məhz onun kimi Üzeyir Hacıbəyov, Heydər Hüseynov, Yusif Məmmədəliyev, Mustafa bəy Topçubaşov, Mirzə İbrahimov və başqa belə insanların təşəbbüsü nəticəsində 1945-ci ildə Azərbaycan Elmlər Akademiyası yaranıbdır. Bu, böyük tarixi hadisədir. Burada Səməd Vurğunun xidmətləri böyükdür. Ən böyük xoşbəxtlik ondadır ki, Səməd Vurğun ömrünün son illərində həmin akademiyanın vitse-prezidenti vəzifəsini daşımışdır və Azərbaycan elminin, ədəbiyyatşünaslığının inkişafında çox əvəzsiz xidmətlər göstərmişdir"[1].

Əgər Səməd Vurğun XX əsrin poetik zirvəsi idisə, Heydər Əliyev XX əsrin siyasət zirvəsi idi. Onun S.Vurğun barəsində fikirləri tənqid və ədəbiyyatşünaslığa XX əsrin ədəbi-tarixi prosesinə, poeziya və mədəniyyətinə yeni istiqlal məfkurəsi – azərbaycançılıq ideyasına əsaslanan metodologiya ilə yanaşmanın nəzəri nümunəsini verir.

Heydər Əliyevin ədəbi-tarixi proses konsepsiyasına Səməd Vurğun heç bir ideologiyanın çərçivələrinə sığışmayan sənətkar kimi daxil olur. Böyük liderin onun mühitinə, taleyinə və yaradıcılığına verdiyi qiymət sosial və estetik meyarla vəhdətdə iştirak edir. Obrazlı desək, cəmiyyət naminə sənət və sənət naminə cəmiyyət birləşir. Amma bir həqiqət həmişə öz mövqeyində qalır: Heydər Əliyev bədii sərvətlərdən dövlətçilik məqsədləri üçün istifadə edirdi. S.Vurğunun sənətinin bədii-fəlsəfi pafosunu müəyyənləşdirən azərbaycançılıq qayəsi böyük liderə yeni fəlsəfəni formalaşdırmaq üçün lazım idi.

Bu fəslin "**Heydər Əliyev poeziyada tarix və fəlsəfə haqqında**"

---

[1]Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı ..., s.363.

adlanan dördüncü yarımfəslində göstərilir ki, Xalq şairi, akademik Bəxtiyar Vahabzadənin yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatı və elminin parlaq bir səhifəsidir. 50-ci illərdə yaradıcılığa başlasa da onun poetik manifesti 60-cı illərdə formalaşmış, estetik idealı altmışıncılar mühitində büllurlaşmışdır. B.Vahabzadə Azərbaycan fəlsəfi-intellektual poeziya təmayülünə mənsub görkəmli bir sənətkardır. 60-cı illərdə sərt rejimli dəmir imperiyada kiçik bir mülayimləşmə yarananda Azərbaycanda milli hissin güclənməsində B.Vahabzadənin, M.Arazın, X.Rzanın mühüm xidmətləri oldu. B.Vahabzadənin milli-mənəvi taleyimizdən bəhs edən rus imperializminə qarşı yazılmış məşhur "Gülüstan" poeması qadağan olundu. Belə bir çətin məqamda o zaman DTK-nın rəhbəri olan Heydər Əliyev müxtəlif vasitələrlə onların azadlıqda qalmasına nail oldu. Hər üç şairin, xüsusilə B.Vahabzadənin yaradıcılığı həmişə, lap ömrünün sonuna kimi Heydər Əliyevin diqqət mərkəzində olub.

Heydər Əliyev bu üç istiqlal şairinin, xüsusən də B.Vahabzadənin cəsarətini yüksək dəyərləndirirdi. B.Vahabzadə filosof şair, dramaturq və ədəbiyyatşünas alim kimi həmişə eyni estetik ideala xidmət etmiş, Azərbaycan ədəbiyyatında dahi Füzulinin, türk və Azərbaycan romantik poeziyasının ənənələrini davam etdirmişdir.

Heydər Əliyev B.Vahabzadənin yaradıcılığına Azərbaycan fəlsəfi-intellektual poeziyasının poetik təkamülü məcrasında yanaşır, ona əqidə şairi, məslək şairi, şəxsiyyətinə sadiq sənətkar kimi dəyər verirdi. XX əsr Azərbaycan poeziyasında B.Vahabzadə lirik-fəlsəfi poeziyanın təmsilçilərindən biri kimi tanınır. 60-cı illər Azərbaycan şeirində yaranan yeni ədəbi təmayüllərdən biri şairin adı ilə bağlıdır. Onun əsərlərində Şərq müdrikliyi ilə Qərb intellekti, lirik-psixoloji ovqatla dərin fəlsəfi mətləblər vəhdətdədir. Bu poeziya təzadlar, kəskin kontraslarla yanaşı, incə hisslər, zərif duyğularla da zəngindir. Dilinə gəldikdə isə, deyə bilərik ki, onun əsərləri S.Vurğun ənənələrinin yeni şəraitdəki davamı kimi qiymətləndirilməlidir. Ümummilli liderimiz şairin yaradıcılığına ona görə bu qədər əhəmiyyət verirdi ki, yaradıcılığı kimi şəxsiyyəti də yüksək, xalqa nümunə idi. O təkcə şeirləri, poemaları, səhnə əsərləri ilə yadda qalmayıb. Tribun şairi kimi də diqqətimizi özünə çəkirdi. 1988-ci il meydan mitnqlərində xalq B.Vahabzadəni eşitmək istəyir, onu tribunalara dəvət edirdi. O dövrdə Bəxtiyar Vahabzadə qədər xalq arasında nüfuzu olan ikinci bir ədəbi şəxsiyyət göstərmək çətindir. Heydər Əliyev B.Vahabzadəni həm də mili azadlıq hərəkatının öncüllərindən biri kimi tanıyır, hörmət edirdi. Bu cəhətdən iki şairi – Bəxtiyar Vahabzadəni və Xəlil Rzanı xüsusi olaraq fərqləndirir, hər ikisini istiqlal şairi kimi dəyərləndirirdi. Bu həmin şairlərin yaradıcılığındakı bəşəri duyğular, milli hisslər, xalq taleyi ilə bağlı olması ilə əlaqədar olub.

1998-ci il aprel ayının 12-də Heydər Əliyev Azərbaycan Akademik Milli Dram Teatrında B.Vahabzadənin “Özümüzü kəsən qılınc” (“Göytürklər”) pyesinin tamaşasına baxır. O, bu dramı “milli birliyi, dövlətçiliyimizi qorumağa səsləyən əsər” kimi yüksək qiymətləndirir. Biz artıq qeyd etmişik ki, Heydər Əliyev ədəbiyyat və mədəniyyətin bütün məsələlərinə, konkret əsərlərin ədəbi-tarixi prosesdəki roluna məhz dövlətçilik prizmasından baxırdı: “Tarixi mövzuda əsər yazmaq həmişə çox mürəkkəbdir, çətindir....Belə bir əsər qədim tariximizin, o cümlədən millətimizin qədim köklərinin tarixinin böyük bir səhifəsini açıb ictimaiyyətə göstərir. Bunun özü böyük bir işdir və hesab edirəm ki, böyük yaradıcılıq qələbəsidir. Bunu Bəxtiyar Vahabzadə çox böyük məharətlə edibdir”[1]

Heydər Əliyevin ədəbi-tarixi proses konsepsiyası mədəniyyət və incəsənətə dair sahələri də əhatə edirdi. Göründüyü kimi, o, B.Vahabzadənin pyeslərinə teatr tamaşaları əsasında qiymət verir və dönə-dönə qeyd edirdi ki, bu əsərlər tamaşaya qoyulmasaydı, kitab və jurnallarda qalsaydı bu qədər böyük effekti və əhəmiyyəti olmazdı.

Beləliklə, B.Vahabzadənin dramatik faciələri kontekstində Ulu öndər həm də milli teatrın çağdaş durumuna qiymət vermiş olur və bildirirdi ki, sizin bu günkü tamaşanız onu göstərir ki, bizim Azərbaycan teatrı yaşayır və inkişaf edir. Dramaturgiyaya onun səhnə taleyini görmədən, nəzərə almadan obyektiv qiymət vermək mümkün deyil.

Tədqiqat işinin IV fəsli **“Heydər Əliyev və sovet dövrü ədəbiyyati”** adlanır. Bu fəslin “**Sovet dövrü ədəbiyyatı: tarixi və bədii həqiqət”** adlanan birinci yarımfəslində qeyd edilir ki, Heydər Əliyevin ədəbi-nəzəri irsində, ümumən ədəbi-tarixi proses konsepsiyasında Sovet ədəbiyyatı problemləri geniş yer tutur.

Azərbaycan ədəbiyyatı 70 illlik totalitar sovet dövründə böyük nailiyyətlər əldə edib. Təkcə Azərbaycan SSR-in deyil, ümumittifaq ədəbiyyatına da dəyərli poetik-fəlsəfi bəhrələr verib. Ulu öndər Heydər Əliyev sovet ədəbiyyatını yüksək qiymətləndirirdi: “Sosializm realizmi yaradıcılıq metoduna əsaslanan sovet ədəbiyyatı bütün dünyada böyük şöhrət qazanmışdır. Sovet yazıçısı hansı dildə yazıb yaratsa da onun ən böyük və ən qədirbilən oxucu kütləsi vardır, o öz əsərləri üçün ictimai məsuliyyətini daha yüksək hiss edir. Buna görə də sovet bədii yaradıcılıq əsərləri inqilabi mübarizə ruhu, canlı və alovlu beynəlmiləlçilik ideyaları ilə, əsl humanizm, partiyalılıq və xəlqiliklə aşılanmışdır. Çox millətli sovet ədəbiyyatının qüvvətli mənbələri vardır və bu

[1]Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı ..., s.464-465.

mənbələrin ən qüvvətlisi rus ədəbiyyatıdır. Çox millətli sovet ədəbiyyatının canlı kökləri ölkəmizin bütün xalqlarının böyük zəka və qüdrətli istedad sahiblərinin unudulmaz bədii irsindədir”[1] .

Heydər Əliyev sənətkar şəxsiyyətində iki cəhətə xüsusi önəm verirdi. Birincisi, yaradıcı adamın milli təfəkkürə, milli özünüdərkə bağlı olması, ədəbi şəxsiyyətin ümumbəşəri dəyərlərə qiymət verməsi. Hər iki istiqamətə diqqət yetirən yazıçı eyni zamanda müasir həyatımızla bağlı olmalı, zəmanəmizin qəhrəmanlarının gündəlik həyatını əsərlərində əks etdirməlidir.

Heydər Əliyev elm, mədəniyyət xadimlərinə daim diqqət və qayğı göstərirdi. İstedadlı, xalq arasında sevilən, dövlətə, dövlətçiliyə sadiq olan ziyalılara isə xüsusi rəğbət bəsləyirdi. Onlardan biri də Yusif Səmədoğlu idi. Bu diqqət və qayğı bir neçə mənbədən qaynaqlanırdı. Birincisi, Yusif Səmədoğlu Azərbaycanın xalq şairi, milli iftixarımız Səməd Vurğun ailəsində böyümüşdü. Həyatda olduğu kimi, sənətdə də yaxşı varis olduğunu sübut etmişdi. Ailə ənənələrini ləyaqətlə qoruyurdu. İkincisi, bir sənətkar kimi öz əsərlərində milli-mənəvi dəyərlərin təbliğatçısı kimi tanınmışdı, azərbaycançılığa, dövlətçiliyə bağlı idi. Siyasi liderimizin Yusif Səmədoğlu şəxsiyyətinə hörməti onun sənətə, sənətkara dəyər verməsini bir daha sübuta yetirirdi. Şairin 60 illik yubileyinə göndərdiyi təbrik məktubunda qeyd edirdi ki, bu gün biz Yusifin yubileyini qeyd edərkən bütün Səməd Vurğun ailəsinin hamısına öz ehtiramımızı, hörmətimizi bildiririk. Bu diqqət və qayğının nəticəsi olaraq 1998-ci ildə Y.Səmədoğlu 60 illik yubileyində ümummilli liderimizin tərəfindən “Xalq yazıçısı” fəxri adına layiq görülüb. Bu gün biz Heydər Əliyevin görkəmli yazıçılar haqqında çıxış, nitq və məruzələrini oxuyanda onun obyektiv-tarixi mövqeyinə, uzaqgörənliyinə heyran qalırıq. Onun dahi bəstəkar Ü.Hacıbəyli və dramaturq C.Cabbarlıya münasibəti sovet dövrü klassiklərinə münasibət üçün obyektiv tarixi- metodoloji meyardır.

Heydər Əliyevin 1982-ci ildə Cəfər Cabbarlının abidəsinin açılışında söylədiyi nitq müasir cabbarlışünaslığın nəzəri-tarixi əsaslarını müəyyənləşdirir. Artıq 30 ildir ki, bu nitqdə deyilən nəzəri-tarixi fikirlər elmimizə səmərəli xidmət göstərməkdədir. Onun C.Cabbarlı haqqında əsas qənaətləri öz obyektivliyi ilə elmimiz üçün dəyər kəsb edir: “Cabbarlının həyatı öz böyük istedadını xalqa xidmət göstərməyə həsr etmiş möhkəm əqidəli və coşğun ehtiraslı döyüşçünün, alovlu vətəndaşın həyatıdır. Şəxsiyyəti dövr, zaman yetişdirir. Çox böyük, orijinal və parlaq istedad sahibi olan Cəfər Cabbarlını da Azərbaycanda Sovet hakimiyyətinin yaradılması və möhkəmləndirilməsi uğrunda mübarizədə günahlandırırdılar. Cəfər Cabbarlı

[1]Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı..., s.68-69.

Azərbaycanda sosializm realizminin banilərindən biridir. Cabbarlının simasında Azərbaycan mədəniyyəti elə bir yeni tipli sənətkar tapdı ki, onun üçün ədəbiyyat və sənət yalnız real həyatı əks etdirmək vasitəsi deyildir, həm də həyatın mürəkkəb inkişafına fəal müdafiə etmək vasitəsi idi. Cəfər Cabbarlı vahid, çoxmillətli sovet ədəbiyyatının banilərindən, təməl daşlarını qoyanlardan biri idi... Cabbarlının həyat yolu və yaradıcılıq tarixi heyrətamiz idi. O, az yaşasa da qoyub getdiyi zəngin ədəbi irs Azərbaycan ədəbiyyatı və incəsənətinin tarixində bütöv bir dövrü təşkil edir”[1].

Heydər Əliyev C.Cabbarlının çoxşaxəli yaradıcılığının əsas istiqamətlərinə toxunur, onu şair, nasir və dramaturq kimi səciyyələndirir. Onun yaradıcılığını yorulmaz əmək fədaisinin hünəri kimi qiymətləndirir. Heydər Əliyevin fikrincə müasir Azərbaycan dramaturgiyasının əsasını qoymuş dram əsərləri – “Aydın”, “Oqtay Eloğlu”, “Sevil”, “Almaz”, “1905-ci ildə”, “Yaşar”, “Dönüş” və s. həmçinin ümumsovet teatr mədəniyyətini zənginləşdirmişdir. M.F.Axundzadə və Mirzə Cəlil ənənələri kontekstində yaranmış C.Cabbarlı dramaturgiyası Azərbaycan səhnəsində bu gün də gözəl səmərə verən yeni ənənələrin əsasını qoymuşdur

Bu gün xalq şairi, Sosialist Əməyi Qəhrəmanı S.Rüstəmin yaradıcılığına həm ədəbi tənqidin, həm də oxucuların münasibətinin birmənalı olmadığı – ziddiyyətli olduğu bir dövrdə Heydər Əliyevin onun barəsində bir sovet şairi kimi hələ 1981-ci ildə - 30 il öncə söylədiyi fikirlərə nəzər salmağa ehtiyac var. Süleyman Rüstəm bir tərəfdən sırf sovet şairi – bolşevizm ideallarına xidmət etmiş şair kimi pislənilir, digər tərəfdən isə qəzəllərinə, müharibə əleyhinə yazılmış əsərlərinə, xüsusən Cənub şeirlərinə görə milli şair kimi təqdir olunur. Heydər Əliyevin onun haqqında qənaətləri belədir: “Süleyman Rüstəmin şeir sənəti qədim tarixi olan zəngin Azərbaycan poeziyası əsasında, Nizaminin, Xaqaninin, Nəsiminin, Füzulinin, Vaqifin gözəl ənənələri əsasında, böyük rus klassik poeziyasının təsiri altında ədəbiyyata gəlmiş və inkişaf etmişdir. Onun yaradıcılığı rus sovet poeziyasının nəcib təsiri altında püxtələşmiş, Azərbaycan xalqının milli sərvətinə, Azərbaycan ədəbiyyatının, bütün çoxmillətli sovet ədəbiyyatının incilərindən birinə çevrilmişdir. Səməd Vurğun və Rəsul Rza ilə birlikdə Süleyman Rüstəm ədəbiyyatımızın tarixinə Azərbaycan sovet poeziyasının banilərindən biri kimi daxil olmuşdur”[2].

Heydər Əliyev müəllif mövqeyinin dəqiqliyini, beynəlmiləlçiliyi, baş verən hadisələrə çevik müdaxiləni, Cənubi Azərbaycanın dərdlərindən yazmasını S.Rüstəm yaradıcılığının başlıca xüsusiyyətləri hesab edib

---

[1]Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı..., s.125-126.
[2]Yenə orada, s.159.

dəyərləndirir.

Ümummilli liderimiz Anarın yaradıcılığını 60-cı illərdən izləməyə başlamış, 70-ci illərdə keçirilən yazıçıların növbəti qurultaylarında onun əsərləri haqqında konkret, dolğun fikirlər söyləmiş, 70-ci illərdə tamaşaya qoyulan "Şəhərin yay günləri" pyesinə tamaşa edəndən sonra əsər haqqında yüksək fikirdə olmuşdur. Təsadüfi deyildir ki, Anarın 60 illik yubileyi münasibətilə ona "İstiqlal" ordeni vermiş, Xalq yazıçısı fəxri adına layiq görülmüşdür. Bu münasibətlə Anara göndərdiyi təbrik məktubunda Azərbaycanın görkəmli yazıçısı kimi müraciət edir, xalqımızın milli-mənəvi dəyərlərini əsərlərində əks etdirdiyinə görə təqdir olunurdu. Məktubda həmçinin "Kitabi-Dədə Qorqud" eposunun, C.Məmmədquluzadə və Ü.Hacıbəyov yaradıcılığının təbliğindəki xidmətləri də xatırlanırdı.

İstiqlal şairi Məmməd Arazın şəxsiyyəti, yaradıcılığı daim Heydər Əliyevin diqqət mərkəzində olub. Belə ki, 1998-ci il aprelin 16-da M.Arazın yaradıcılıq gecəsində çıxış edərək, şairin yaradıcılığındakı lirik-emosional ovqatı, vətənpərvərlik duyğularını xüsusi olaraq qeyd etmiş, ədəbiyyat tariximizdəki yeri və mövqeyi haqqında qiymətli fikirlər səsləndirmişdir. Bu da diqqətəlayiqdir ki, o, şairin daim sağlamlığının qeydinə qalmış, dəfələrlə Almaniyada müalicə almasına yardımçı olmuşdur.

Özü istiqlalımızın memarı olduğuna görə Heydər Əliyev Azərbaycan istiqlal poeziyasına böyük qiymət verir, müxtəlif çıxışlarında Ə. Cavadın, A. İldırımın, M.Müşfiqin istiqlal poeziyasını dəyərləndirir, onların davamçılarından B.Vahabzadənin, Anarın, M.Arazın, X.R.Ulutürkün bədii irsini təqdir edirdi. O, 91-ci ildəki müstəqilliyimizi Azərbaycan Xalq Cümhuriyyətinin varisi adlandırır, B.Vahabzadə, X.R.Ulutürk, M.Araz yaradıcılığına şüur, milli özünüdərk mövqeyindən yanaşırdı. H.Əliyevin 15 aprel 1995-ci il tarixli sərəncamı ilə bu üç sənətkara "İstiqlal" ordeni verilmişdir.

Bu fəslin "**Ədəbi əlaqələrin milli və ümumbəşəri mahiyyətinə siyasi liderin yanaşmaları"** adlanan ikinci yarıfəslində göstərilir ki, Heydər Əliyev bir prinsip olaraq ədəbiyyatların qarşılıqlı zənginləşməsini əsas götürür, birtərəfli təsir, daha doğrusu "böyük ədəbiyyatın" öyrədicilik missiyasını qəbul etmirdi. Heydər Əliyev ədəbiyyatların dostluğuna xalqların dostluğu kimi baxır, dünya birliyinin yaranmasında bədii sözün rolunu yüksək qiymətləndirirdi.

Xalq ruhunun ən yaxşı tərcümanı olan bədii ədəbiyyat hər zaman mənəvi ünsiyyətə, milli birliyə xidmət etmişdir. Xalqın tarixdə səfərbər olunmasında bədii ədəbiyyatın rolu misilsizdir. Ədəbi əlaqələr isə əlavə güc mənbəyi, yeni güc mərkəzlərinin tapılması deməkdir.

Qarşılıqlı əlaqələr prosesində ədəbiyyatlar təkcə ideya-fəlsəfi cəhətdən

deyil, bədii-poetik baxımdan da yeni keyfiyyətlərə malik olurlar. Heydər Əliyev belə nəticəyə gəlirdi ki, "Sovet ədəbiyyatı millətlərin və xalqların dostluğunun, yaxınlaşmasının və qarşılıqlı təsirinin gözəl bəhrəsidir. O, eyni zamanda bu millət və xalqların beynəlmiləl birliyinin qüdrətli vasitəsidir"[1].

Heydər Əliyev ədəbi əlaqələrin genişləndirilməsini bir vəzifə olaraq irəli sürür, onu özbaşına təsadüflərin öhdəsinə buraxmırdı. Belə fikirləşirdi ki, ədəbi əlaqələr ədəbiyyatları vahid dünya ədəbiyyatı sisteminə bağlayan proseslərdir. Burada yazıçıların şəxsi təşəbbüsündən, şəxsi dostluq əlaqələrindən tutmuş dövlət proqramlarına qədər hər şey yerli-yerində olmalı idi: "Azərbaycan sovet ədəbiyyatının şərəfli və məsul vəzifəsi qardaş ədəbiyyatların dostluq tellərini yorulmadan möhkəmlətməkdir, onların bir-birinə daha da yaxınlaşmasına kömək etməkdir. Biz sizin fəaliyyətinizin bu cəhətinə prinsipial ictimai-siyasi məna veririk. Ona görə ki, ədəbiyyatların dostluğu xalqlar birliyinin qüdrətli vasitəsidir və xalqların mənəvi qardaşlığını bütün dərinliyi ilə ifadə edir"[2].

Ulu öndərin ədəbi əlaqələr konsepsiyasında bədii tərcümə məsələləri xüsusi yer tutur. Tərcümə məsələsində dillərin əlaqəsinə diqqət yetirən Heydər Əliyev burada da qarşılıqlı zənginləşmənin mümkünlüyü, labüdlüyü ideyasını irəli sürür. O, qarşılıqlı təsir və qarşılıqlı zənginləşmə prosesində sovet dönəmində rus dilinin həlledici rol oynamasını qeyd edir. Onun fikrincə, milli ədəbiyyatların, o cümlədən Azərbaycan ədəbiyyatının dünyada şöhrət qazanmasında rus dili böyük faydalar vermişdir. Əlbəttə, bu bir tarixi həqiqətdir ki, XIX-XX əsrlərdə, iki yüz ildən artıq bir dövr ərzində rus dili Azərbaycan mədəniyyətinin dünyaya çıxışı üçün böyük rol oynayıb. Bu dil təkcə postsovet məkanında deyil, ümumən dünyada beynəlxalq ünsiyyət körpüsü rolunu oynayıb.

Heydər Əliyev ədəbi əlaqələrə təkcə ədəbi-nəzəri problem kimi baxmırdı, tarixdə xalqları birləşdirən bir möhkəm mənəviyyat körpüsü kimi yüksək dəyər verirdi. Onun zəngin nəzəri irsində qarşılıqlı ədəbi əlaqələr həm də ictimai-siyasi problem kimi nəzərdən keçirilir, o, bu prosesə xalqlar dostluğunun təminatı kimi dəyər verirdi.

Bu fəslin "**Heydər Əliyevin nəzəri irsində ədəbi dil və üslub məsələləri"** adlanan üçüncü yarımfəslində göstərilir ki, Heydər Əliyevin ədəbi-tarixi proses konsepsiyasında ədəbi dil və üslub problemi əsas yer tutur. O, üslub anlayışını təkcə bədii üslub, yaxud da sənətkarın fərdi üslubu hüdudlarında yox, təxminən yaradıcılıq metodu və ədəbi cərəyana bərabər miqyasda qəbul edirdi. Onu zəmanənin üslubu kimi də qəbul etmək olar. Azər-

---

[1]Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı..., s.114.
[2]Yenə orada, s.142.

baycan dili, xüsusilə ədəbi dil məsələləri Ulu öndəri hakimiyyətdə olduğu bütün dövrlərdə düşündürüb.

Rus dilinin SSRİ-nin vahid ünsiyyət dili elan olunduğu dövrdə Heydər Əliyev Azərbaycan dilini Azərbaycan SSR-nın dövlət dili kimi Konstitusiyaya daxil etməyə nail oldu. Sonralar – 2001-ci ildə o, bu tarixi məqamı belə xatırlayır: "Yadımdadır, 1978-ci ildə biz Azərbaycanın Konstitutsiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında maddə daxil edəndə, Moskvadan bizim başımıza nə qədər oyunlar açıldı, nə qədər təzyiqlər göstərildi. Ancaq biz bu təzyiqlərə dözdük. Hələ 1978-ci ildə qəbul olunmuş Konstitusiyada, bir çox başqa respublikalardan fərqli olaraq, Azərbaycan dili haqqında maddə yazdıq və Azərbaycanın dövlət dilinin Azərbaycan dili olduğunu orada göstərdik"[1] .

Heydər Əliyev deyir ki, "Dil xalqın böyük sərvətidir. Ədəbi dilin tərəqqisi olmadan mənəvi mədəniyyətin tərəqqisi mümkün deyildir"[2].

Heydər Əliyevin dil siyasəti onun milli siyasətinin, mədəni-mənəvi siyasətinin tərkib hissəsidir. Ümumiyyətlə milli liderin dillə bağlı görüşləri onun nəzəri irsində xüsusi yer tutur.

Heydər Əliyev türk dillərinin oğuz qrupuna mənsub qədim Azərbaycan dilini öz parlaq nitqləri ilə danışa-danışa cilaladı. Azərbaycan siyasət dilini, diplomatiya dilini yaratdı. O, 1997-ci ildə Azərbaycan yazıçılarının X qurultayındakı nitqində dilimiz haqqında olduqca məzmunlu fikirlər söyləmişdi: "Bu gün müstəqil bir dövlət kimi ən fəxr etdiyimiz bir də odur ki, bizim gözəl Azərbaycan dilimiz var. Azərbaycan dilinin formalaşmasında, inkişaf etməsində, bugünkü səviyyəyə çatmasında yazıçılarımızın, şairlərimizin, ədəbiyyatşünasların, dilçi alimlərin böyük xidməti var... Bu bizim ən böyük sərvətimizdir. Xalqı xalq edən, milləti millət edən onun ana dilidir... biz türkdilli xalqların ailəsinə mənsub olan bir xalqıq. Ancaq bunun çox şaxələri var. Bunun bir şaxəsi də Azərbaycan dilidir... Azərbaycan dilini daha da zənginləşdirmək, daha da inkişaf etdirmək sizin ən müqəddəs borcunuzdur. ...Biz dünyada öz dilimizlə tək yaşayırıq. Bizim birinci nailiyyətimiz o olmalıdır ki, öz dilimizi Azərbaycanda hakim dil etməliyik. Hər bir azərbaycanlı öz ana dilini bilməlidir, bu dildə səlis danışmalıdır və bu dili sevməlidir"[3].

---

[1]Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Elmi redaktor və ön sözün müəllifi: prof. Ramiz Mehdiyev. Müəllif-tərtibçi: prof. Səlahəddin Xəlilov. Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, 2002, s.216.

[2]Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı..., s. 146.

[3] Heydər Əliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. On üçüncü kitab: oktyabr, 1997, dekabr, 1997. Bakı: Azərnəşr, 2004, s.133-134.

Heydər Əliyevin dil təlimi haqqında sanballı monoqrafiyanın müəllifi professor N. Xuduyev yazır: "Heydər Əliyevin Azərbaycan dili haqqındakı fikirləri, mülahizə və qeydlərini, heç şübhəsiz, bu sahədə dövlət səviyyəli əməli fəaliyyətindən kənarda təsəvvür etmək mümkün deyil – böyük mütəfəkkir, dövlət xadimi Azərbaycan dilinin bir dövlət dili kimi mövqeyinin yüksəlməsinə çalışmaqla yanaşı, həmin məsələnin həllinin elmi-nəzəri prinsipləri, yolları barədə də düşünmüş və düşünməkdədir. O, ana dilinin mənşəyinin, tarixi inkişafının, bugünkü funksional xüsusiyyətlərinin araşdırılması işinə həmişə diqqət vermiş, Azərbaycan dilçilərinin bu sahələrdə intensiv çalışması üçün dövlət rəhbəri kimi əlindən gələni əsirgəməmişdir"[1].

Heydər Əliyev Azərbaycan dilinin, tarixinin, ədəbiyyat və mədəniyyətinin yeni – azərbaycançılıq məfkurəsi ilə dərkinin metodologiya və strategiyasını formalaşdırdı. Bu baxımdan, "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2001-ci il tarixli fərmanı və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 9 avqust 2001-ci il tarixli fərmanı böyük tarixi-siyasi əhəmiyyətə, dərin fəlsəfi-filoloji məzmuna malik sənədlər idi. Bu tarixi sənədlər artıq yeni əsrin və üçüncü minilliyin əvvəllərində ana dili uğrunda mübarizənin, dövlət səviyyəsində milli müstəqillik uğrunda mübarizənin – azərbaycançılığın tərkib hissəsi kimi əks etdirən dövlət proqramları – böyük strategiyanın təməl faktları idi. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanda Azərbaycan dili "Azərbaycanın dövlət müstəqilliyinin başlıca rəmzlərindən" sayılır və deyilir ki, "Bütün xalqlarda olduğu kimi, Azərbaycan xalqının da dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir. Dilimiz xalqın keçdiyi bütün tarixi mərhələlərdə onunla birgə olmuş, onun taleyini yaşamış, üzləşdiyi problemlərlə qarşılaşmışdır. O, xalqın ən ağır günlərində belə onun milli mənliyini, xoşbəxt gələcəyə olan inamını qoruyub möhkəmləndirmişdir. İnkişaf etmiş, zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, böyük gələcəyə malikdir"[2] .

Heydər Əliyevin ana dilimizlə bağlı imzaladığı sənədlər həyatda öz işini görə-görə artıq tarixə çevrilməkdədir. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanı (18 iyun 2001), "Azərbaycan əlifbası və Azərbaycan dili gününü təsis edilməsi haqqında" fərman (9 avqust 2001) təkcə siyasi sənədlər deyil, dilimizin mənşəyi və tarixi, nəzəriyyəsi, dilçilik elmimiz haqqında nəzəri proqram səciyyəli əsərlərdir.

---

[1]Xudiyev N. Heydər Əliyev və Azərbaycan dili. Monoqrafiya. Bakı: Təhsil, 1997, s.9.
[2]Heydər Əliyev və Azərbaycan ədəbiyyatı....,s.231.

XX əsrin əvvəllərində də, əsrin sonlarında da ana dili problemi milli ideologiyamızın əsasında dayanırdı. Heydər Əliyev Dünya Azərbaycanlılarının I qurultayındakı tarixi nitqində bu barədə böyük qürur hissi ilə demişdir: "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!

Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq.

...Biz Azərbaycanda Azərbaycan dilinin hakim olmasını, Azərbaycan dilinin getdikcə inkişaf etməsini təmin etməliyik"[1].

Heydər Əliyevin dil konsepsiyasında əlifba problemi də əsas yerlərdən birini tuturdu. Əlifbanın dəyişilməsi uzun sürən, çətin tarixi – psixoloji bir prosesdir. Heydər Əliyev az müddət ərzində buna əzmlə nail oldu.

Tədqiqat işinin beşinci fəsli **"Azərbaycan ədəbiyyatında Heydər Əliyev obrazının bədii təcəssümü"** adlanır. Bu fəslin "**Tarixi şəxsiyyətin bədii təfəkkürdəki dərki"** adlı birinci yarımfəslində qeyd edilir ki,son iyirmi beş il ərzində Heydər Əliyev obrazı ədəbiyyatda heç kimlə müqayisə olunmayacaq dərəcədə kifayət qədər işlənib. Bu dövrün şahidi olan hadisələrin burulğanından keçmiş hər bir yazar sarsıntı anlarında onun qəhrəmanlığının, iradəsinin, heyrətamiz məntiqinin gücünü görən hər bir qələm adamı bütün bunlara münasibətini bildirməkdən çəkinməyib. Bir sözlə, xüsusilə, hadisələrin şahidi olan sənətkarlar onu daha çox gördükləri, tanıdıqları kimi qələmə almağa çalışıblar.

Əlbəttə, ədəbiyyatın, həyatdan gələn tarixi simanın nə dərəcədə bədiiləşdirilməsi, hansı gücdə obrazlaşdırılması hər bir sənətkarın sənətkarlığından, fərdi yaradıcılıq keyfiyyətlərindən çox asılıdır. Bu mənada, son iyirmi beş ildə çox nəhəng Heydər Əliyev kitabxanası yaranıb. Bəlkə də bu, dünyanın ən zəngin kitabxanaları ilə vahid qəhrəmanın obrazını, adını təqdim etmək baxımından müqayisə oluna bilər. Ancaq bu qeyri-adi, hətta fantastik kitabxananın dəyərli əsərləri nə qədər çox olsa da, bu əsərlər sırasında Zəlimxan Yaqubun "Əbədiyyət dastanı" poeması xüsusi yeri olan əsərdir.

[1] HeydərƏliyev. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Otuz altıncı kitab:sentyabr, 2001 - noyabr, 2001. Bakı: Azərnəşr, 2011, s.198-199.

“Əbədiyyat dastan” sözün həqiqi mənasında nadir sənət incisidir. Yüksək pafos və emosionallıq, intensiv poetik axın, yüksək ruh, bir sözlə, hər cəhətdən ilhamla qələmə alınmış sənət nümunəsidir.

Zəlimxan Yaqub Heydər Əliyevi ən müxtəlif rakuslardan müşahidə edə bilmiş və müəyyən qənaətə gəlmişdir: “Şəxsiyyət. Vətəndaş. İctimai xadim. Dahi dövlət adamı…” kimi gördüyü müasirini böyük poetik sözün gücü ilə sözdə, ədəbiyyatda əbədiləşdirilib. Əsər iki hissədən ibarətdir: “Böyük ömrün dastanı” və “Böyük ömrün davamı”. Birinci hissə şairin publisistik qeydlərindən sonra Proloqla başlanır. Min illik klassik Azərbaycan ədəbiyyatında bu tipli əsərlərdə ulu Yaradana müraciət bir ənənə kimi yaşarı olub.

Z.Yaqub da Yaradanın adını başlanğıcdaca unutmur, amma özünəməxsus şəkildə müraciət etdiyi obrazın əsas xarakterik cizgilərini qabarıq vermək üçün:

Eşqə qadağa yox, sevgiyə sərhəd
Xatirən canlıdır, şöhrətin diri.
Ömrünün mənası millətə xidmət,
Adının mənası Allahın şiri.

Ruhun dolaşacaq başımız üstə,
Adın yaşayacaq təbiət kimi.
Neçə doğma qanda, doğma nəfəsdə
Qəlbin döyünəcək məhəbbət kimi[1].

İlk bənddə diqqəti çəkən odur ki, şair liderin adında onun mənəvi gücünü göstərən mahiyyət görür. “Heydər” adını sanki eyhamla bildirir. “Heydər” adı məlum olduğu kimi, islamın təməl qurucularından biri, Şərqin hikmət və qılınc qüdrəti epitetləri ilə yaddaşlarda yaşayan böyük siması Əli İbn Əbu Talibin adlarındandır. Mənası ilə güclü, qüdrətli, yenilməzlikdir. Başqa sözlə, şairin qeyd etdiyi kimi, “Allahın şiri” deməkdir. Amma adının mənası Allahın şiri olan bu qüdrətli insan həyatının mənasını xalqına xidmətdə görür. Sonra şair xalq və lider, şəxsiyyət və millət fenomeninin bir-birinə bağlılığı zəminində möhtəşəmliyin, gücün təminatını göstərir.

Şair öz əsərini ağır kədərin xəbəri ilə başlayır. Bu da Cavanşirin ölümünə alban şairi Davdəkin yazdığı əsəri yada salır. Həmin əsərdə də Davdək xalqın böyük ümidgahının ölüm xəbərini dünyanı bürüyəcək bir kədər

---

[1] Zəlimxan Yaqub. Əbədiyyat dastanı (poemalar). Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsinə ithaf olunur. Bakı: Pedaqogika, 2008, s.6.

kimi xarakterizə edir. Bu motiv Z.Yaqubda da güclüdür. Sarsıntının, ağır kədərin gətirdiyi əhval şairin poetik vüsətini dağıtmır, əksinə, bir qədər də onu səfərbər edir.

Z.Yaqub bunu təsadüfi demir. Hətta bu günün özündə də sənətin baş qəhrəmanı kimi uzaqlardan obrazlar gətirilir. Xalqa onun tanıdığını, sevdiyini təqdim edəndə xalq təqdimatı daha yaxşı həzm edə bilir. Obrazı ruhuna köçürür, varlığına hopdurur.

Şübhəsiz ki, Z.Yaqub da bu həqiqətləri yaxşı bilir. Ona görə də şeirinin əsas qəhrəmanı kimi xalqına üz tutur, xalqın yetirdiyi insanın özünü bütün əzəmətilə göstərir. "Qara xəbərin acısı", "Heydər köçdü deyəndə", "Ağım, qoşmam, bayatım", "Yaralı qoşmalar", "Görən torpaq bilirmi" hissələrdə təqdim olunan başlıqlardan göründüyü kimi, kədər addım-addım yeriyir. Ancaq bu kədər elə mənəvi gücə söykənir ki, o, nə obrazı kölgələmir, nə də oxucunu əzmir. Onun - tarixi şəxsiyyətin yaşarılığının inamına şübhə toxumu səpmir.

.Yaqub da çox böyük, ağır itki kimi Ulu Öndərin cismani ayrılığını sonsuz dərd kimi öz varlığında hiss edir. Təsadüfi deyil ki, bu ayrılıqdan sonra hətta, ötən anların hər bir məqamını bütöv bir zaman kəsiyi kimi görür. Bu üzücü anların ("Necə dözdü, dayandı, Qaldı bu vaxta canım") ağırlığını, acılığını zamanın sonsuzluğu ilə müqayisə edir. Təbii ki, böyük kədərin sonsuzluq ümmanında bayatılar onun sahilə canatma imkanlarıdır. Burada da xalqın böyük kədəri hər bir misrada danışa-danışa canlanır.

Üzük qaşsız qalmasın,
Divar daşsız qalmasın.
İgid elsiz, arxasız,
Ölkə başsız qalmasın[1].

Heç kimə sirr deyil ki, Xalq şairinin yaradıcılığında, xüsusilə, son on illik mərhələdə bəşərə, insanlığa, o cümlədən, Vətənə, milli dövlətçiliyə xidmət yolunda Heydər Əliyevin mübarizəsinin bədii təcəssümü üçün Z.Yaqubun Heydər Əliyev obrazı daim müqayisə meyarı olacaq. Hətta şairin möhtəşəm "Peyğəmbər" əsəri də bu müqayisədə öz dəyərinin kifayət qədər təsdiqini tapacaqdır.

Z.Yaqub Heydər Əliyevi Azərbaycan mənəvi mühitində qüdrətli sima kimi təqdim edir. Biz əsərdə onun Azərbaycanda 14 iyul 1969-cu ildə hakimiyyətə gəlişinin təntənəsini görürük. Burada şair böyük dəyişikliyi, cəmiyyətə, insanlığa doğru rəhbərlik qayğısını tərənnüm edir.

---

[1]Zəlimxan Yaqub. Əbədiyyat dastanı..., s.17.

Z.Yaqubun "Əbədiyyət dastanı" əsərinin birinci hissəsi bu misralarla bitir: "Eşqin ilə yaratdığım bu dastanın, Son nöqtəsi mən öləndə qoyulacaq!". Şair poemanın birinci hissəsini liderin xalqdan cismən ayrıldığı günlərdə qələmə alıb.

Əsərin ikinci hissəsi – "Böyük ömrün davamı" adlanan ikinci kitab ayrılıqda müstəqil bir əsərdir. İkinci kitab "Müəllifdən" qeydi və "Proloq" adlanan hissə ilə başlanır. "Səni gördüyüm anlar", "Yenə mən səninləyəm", "Sənin mübarək ömrün", "Bu dünya sənsiz deyil" poetik lövhələri poemanın ayrı-ayrı və bir-birini tamamlayan hissələri olduğu kimi, həm də hər bir hissə ayrılıqda bitkin bir əsərdir, çox dolğun poetik lövhədir. Heydər Əliyev obrazının özünə, daxili-mənəvi mühitinə müxtəlif tərəflərdən yönlənən poetik işıq selləridir.

Zaman keçəcək, Heydər Əliyev haqqında daha yeni-yeni nəsillər, qələm adamları söz demək cəhdində olacaq. O, bədii yaradıcılığın əsas obrazlarından biri kimi, mənəvi yaddaşın güc göstəricisi kimi təmsil olunacaq. Bir sözlə, Heydər Əliyev mövzusu poeziyanın əsas tərənnüm obyekti kimi təkrar-təkrar qələmə alınacaqdır. Heç şübhəsiz, Ulu öndərə sevgi ilə yazılacaq bütün əsərlərdə, bu və ya digər əsərlərdə Z.Yaqubun "Əbədiyyət dastanı" poemasının təsiri hiss olunacaqdır. Bir vaxt Məhəmmədhüseyn Şəhriyar məlum əsəri ilə az qala bütöv bir əbədi məktəbin əsasını qoydu. Z.Yaqub da yüksək poetik ruhla yazılmış "Əbədiyyət dastanı" poetik dilogiyası ilə demək olar ki, güclü özüllərə malik böyük enerji daşıyıcısı ilə belə bir məktəbin – "Heydərnamə" məktəbinin əsasını qoyub.

Bu fəslin "**Tarix yaradan şəxsiyyətə sənətkar baxışı"** adlı ikinci yarımfəslində göstərilir ki, Xalq şairi Z.Yaqub böyük poetik "Heydərnamə" məktəbinin əsasını qoyub. Ancaq bu məktəb onun simasında özünün möhtəşəm sarayını yaradıb. Daha əvvəldən yaradılmış poetik örnəklərin diqqətdən kənarda olduğunu da demək olmaz. Əli Rza Xələflinin "İnsan, tarix və zaman", Zeynal Vəfanın "Millətin xilaskarı" kimi əsərlər də ya həmin dövrdə, ya da 2003-cü ilə qədər artıq yazılmışdı. Bu əsərlərdə də liderin möhtəşəm obrazı kifayət qədər dolğunluğu ilə görünür. Qısası, biz 93-cü ilin hadisələrinin fonunda Ulu öndərin obrazına münasibətə də seyrçi yanaşa bilmərik. Ə.Xələflinin "İnsan: tarix və zaman" poemasında dövrün mənzərəsi bütün çılpaqlığı və faciəviliyi ilə nəzəri cəlb edir. Əvvəlcə müəllif konkret olaraq dövrün adını, ilini göstərir:

Doxsan üçüncü il – soyuq yay keçir,
Zamanın yolları uçurum, dərin…

Ürəyi titrəyir, qəlbi dərd içir
Yurdun taleyini düşünənlərin[1].

Şair Heydər Əliyevin əzəmətini, onun tükənməz enerjisini, gücünü, xalqın iradəsini bərpa etmək, inamını qaytarmaq üçün bir neçə obrazı xarakterizə edir.

Ümummilli lider Heydər Əliyevin obrazının əbədiləşdiyi bədii əsərlərdən biri də Zeynal Vəfanın "Millətin xilaskarı" adlanan poemasınıdır. Müəllif poemanın epiqrafında yazır ki, xalqımızın dahi oğlu, ümumilli və əbədiyaşar liderimiz, bəşəri ideyalar və böyük əməllər sahibi Heydər Əliyevin unudulmaz xatirəsinə ithaf edirəm.

Zeynal Vəfa kifayət qədər ömür sahibi və həyat təcrübəsinə malikdir. Onun poetik yaradıcılığı da, hətta sovet dövründə belə ədəbiyyatşünaslar tərəfindən XX əsrin son qərinəsinin tədqiqatçıları tərəfindən qədərincə dəyərləndirilib. Heç şübhəsiz, o, bu əsəri yazmaq üçün ömrünün ən azı 90-cı ildən bəri – lap elə əsərin çap olunduğu dövrə qədər, yəni 2004-cü ilin sonlarına qədər, demək, on dörd illik bir vaxt müddətində müşahidə aparıb. Başqa sözlə, o, öz poemasına "Millətin xilaskarı" adını verə bilməzdi. Bununla o, sözünün tarixi həqiqətlə üst-üstə düşdüyünü təsdiq eləyir. Zeynal Vəfa Azərbaycanın mənəvi mühitini, təbiətini, ictimai həyatını, poetik-fəlsəfi görüntülərlə qədərincə vəsf edib. Amma "Millətin xilaskarı" adlanan poeması ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin özünə görünən tərəfdən əzəmətli portretini yaradıb. Əlbəttə, söz rəng deyil. Ancaq hər bir söz məqamına görə, yerinə görə işləndikcə rəngləri də, hətta səsi, musiqini də əvəz etmək gücündə olur. Söhbət ondan gedir ki, şair Zeynal Vəfa xalqın Ümummilli Liderin - Heydər Əliyevin sözlə qüdrətini qədərincə verə bilib, ya yox?! Əsas odur ki, obraz açıq-aşkar görünür:

O, xalqına ən vəfalı oğuldu,
Gülüşüylə qaranlıqlar boğuldu,
Beş addımlıq bir daxmada doğuldu,
Beş qitənin şöhrətinə döndü o.

Qəlbitürküninancyeri – Kəbədi,
Ömrüxalqınömrüqədərəbədi,
Zənginəməldünyasıdıryurdumun,
İlkazadlıq, müstəqillikməbədi[1].

---

[1] Xələfli Əli Rza. İnsan, tarix və zaman. (poema-esse) // Həsrət körpüsü [Şerlər və poemalar].Redaktoru: İ. Qasımzadə. Bakı: Azərbaycan, 2003, s.239.

Zeynal Vəfada yerinə düşən bədii ifadə vasitələri, məcazlar, bənzətmələrlə əsərinin girişinə möhtəşəm bir ruh gətirir. Bununla bir həqiqəti təsdiqləyir ki, millətin xilaskarı olmaq üçün gərək qeyri-iradi, qeyri-adi güc sahibi olasan. Ən başlıcası, insanlığı, məmləkəti, xalqı, Vətəni sevəsən, yurdun özü ilə nəfəs alasan. Bax, o zaman bilərsən ki, bir türk olaraq sən kimsən? Sənin inanc yerin – necə ki, müsəlmanların inanc yeri Kəbədi, xalqın ruhu olacaq, xalqın mənəviyyatı olacaq. Doğrudur, Zeynal Vəfa Kəbəni türkün inanc yeri kimi təsbitləyir. Amma tarixən türkün inanc yeri dini baxımdan tanrıçılıq, istinad baxımından etnik ruhun özüdür. Etnik ruh isə nə qədər Vətənə bağlıdır, bir o qədər güclüdür.

Təcrübəli sənətkar kimi o, "Xilaskar" əsərində konkret olaraq Heydər Əliyev obrazını qarşısına məqsəd qoymur. O, yalnız Xilaskara möhtac olan ölkəni, milləti və zamanı təqdim edir.

Azərbaycan ədəbiyyatında istər elmi, istərsə də ədəbi publisistikada Heydər Əliyevin obrazı dolğun işlənib. Bu sırada Hüseynbala Mirələmovun "Görkəmli adamların həyatından" kitabı xüsusilə təqdir olunmalıdır. O, bu əsəri yazana qədər çoxlu ədəbi-publisistik, tarixi əsərlər yaradıb. Xüsusilə, onun Heydər Əliyevşünaslığın birinci mərhələsi üçün "Həqiqət" adlı tarixi-fəlsəfi oçerklər silsiləsi maraq doğurur.

Bu əsər Heydər Əliyevin həyatının müəyyən mərhələsi üçün çox dəyərli ədəbi gündəlik xarakteri daşıyır. Əsər özü çox mühüm tarixi mərhələni əks etdirdiyi kimi, həm də Heydər Əliyevin Azərbaycan həqiqətləri uğrunda mübarizələrinə işıq salır. Bu əsər imkan verib ki, müəllif sonralar "Zəfər yolu" ədəbi-fəlsəfi essesini, "Bir günəş var" və "İşığın izi ilə" tarixi-fəlsəfi esselərini yaratsın. Halbuki, müəllif "həqiqət" tarixi-fəlsəfi oçerklər silsiləsi və bu sıradan məlum mövzuda esseləri ilə xüsusi mənəvi hazırlıq dövri keçdi. Beləliklə, "Görkəmli adamların həyatı" seriyasından Heydər Əliyevin obrazını dünyaya təqdim edə biləcək gücdə "Heydər Əliyev" əsərini yaratdı[2].

Sənət adamı həyatı görür, həyat prosesləri yaşayır. İstər özündən əvvəlki dövrdə olsun, istərsə də öz zamanəsində, hətta sənətkarın ixtiyarı var ki, hələ yaşamadığı zamanı belə təsvir eləsin. Amma Heydər Əliyevin Azərbaycan xalqının Ümummilli Lideri olaraq gücü, qüdrəti onda idi ki, öz zamanəsinin sənətkarlarına da qədərincə parlaq bir obraz kimi görünə bilmişdi.

---

[1]Zeynal Vəfa. Millətin xilaskarı. Bakı: "Azərbaycan" nəşriyyat, 2004, s.5.
[2]Mirələmov H. İşığın izi ilə: tarixi-ədəbi esse. Redaktoru: E. Kamal. Bakı: Azərbaycan nəşriyyatı, 2004, 288 s. ; yenə onun: Millətin atası: publisistik düşüncələr, tarixi esselər, məktublar. Redaktoru: Ə. Xələfli. Bakı: Azərbaycan nəşriyyatı, 2004, 272 s.

Bu fəslin **“Poetik yaddaşda Heydər Əliyev obrazının bədii təcəssümü”** adlanan üçüncü yarımfəslində göstərilir ki, Heydər Əliyev tarix yaradan şəxsiyyətdir. Bu cür şəxsiyyətlər xalqın tarıxi taleyində mühüm rol oynayır, milli istiqlal məfkurəsini gücləndirir, mənəvi dəyərlərin qorunmasında müstəsna rol oynayır. Buna görə də sənət və ədəbiyyatda həmin tarixi şəxsiyyətlərin bədii obrazı yaradılır, xüsusən poetik yaddaşda əbədiləşmək hüququ qazanır. Hüydər Əliyevin müdrik dövlət rəhbəri kimi xalqımızın tarixi taleyində oynadığı rol neçə-neçə şeir və poemaların mövzusuna çevrilimiş, şairlərimizin ilham mənbəyi olmuşdur.

Ümummilli lider Heydər Əliyev haqqında yazılan qiymətli əsərlərdən biri də Ramiz Heydərin “İlhamlı gələcək” poemasıdır[1]. Bu əsərə qədər müəllifin Azərbaycan ədəbiyyatında “Həyəcan”, “Mənim sevgi dünyam”, “Bir əsrin insanları”, “Oğlumla söhbət”, “Bir ovuc günəş” kimi əsərləri işıq üzü görüb. Səhnəmizdə “Zəng səsləri”, “Sınaq pillələri”, “Paralelimin nəbzi”, “Bahar qız” və başqa dram əsərləri tamaşaya qoyulub. Bu əsərlərdə real həyat həqiqətləri, tariximizlə bağlı məlum faktlar bədii ifadəsini tapmaqla yanaşı, dramatik konflikt, xarakterlərin dolğunluğu da diqqəti cəlb edir.

Rəhilə Elçinin “Heydərnamə” dastan – poemasını da Heydər Əliyevin həyat və fəaliyyəti haqqında yazılan qiymətli əsərlərin siyahısına daxil etmək olar[2]. Əsərin müxtəlif fəsillərini oxuyanda hiss olunur ki, müəllif Heydər Əliyevin siyasi-ictimai fəaliyyətinə yaxından bələd olub, 30 illik hakimiyyəti dövründə respublikamızın ictimai-mədəni mühitindəki rolunu diqqətlə izləyib, ən əsası müraciət etdiyi mövzunu ürəkdən sevib, şəxsiyyət və ictimai mühit amilinə poetik yaradıcılığın imkanları səviyyəsində aydınlıq gətirməyi bacarıb.

Poema başdan-başa böyük şəxsiyyətin möhtəşəm, yaddan çıxmayan, xatirələrdə iz buraxan bədii obrazının yaradılmasına həsr olunub. Şair hesab edir ki, ömrü boyu Heydər Əliyevin səcdəsinə durmaq milyonlardan biri kimi onun da müqəddəs borcudur. Hətta sevinir ki, ulu öndərə həsr etdiyi poemanın hər sətri sal daşlardan yonulub, “Heydərnamə” adlı şah əsərində onun tunc büstünü qoyub.

Heydər Əliyev şəxsiyyəti, siyasi fəaliyyəti haqqında son illərdə kassik üslubda da yeni əsərlər yaranıb. Asimin “Dahinamə” əsəri də bu cür məzmunlu, maraqlı poemalardan biridir[3]. “Dahinamə” əruz vəzninin xəlif bəhrinin “Fail Atin məfAilun fəilun” təfiləsində yazılıb. Əsər 1300 beytdən, başqa cür desək,

---

[1]Ramiz Heydər. İlhamlı gələcək. Bakı:Vektor, 2004, 268 s.
[2]Elçin Rəhilə. Heydərnamə: dastan-poema. Redaktoru: R.Oday. Bakı: Araz, 2009, 320 s.
[3]Asim. Dahinamə. Redaktoru: Əli Nur, Hacı Əliovsət. Bakı: MBM, 2005, 128 s.

2600 misradan ibarətdir. Burada müxtəlif beytlər bir-birinə zəncirvari birləşir. Fikirlər arasında məntiqi bağlılıq güclüdür.

"Dahinamə" əsərinin müxtəlif hissələrini birləşdirən başlıca cəhət fəlsəfi mətləblərin çoxluğu, insan idrakına, qüvvətinə inamın böyük olmasıdır. Şair Heydər Əliyevi "xalqın idrakının rəhbəri" hesab edir.

Rafiq Daşkəsəmənlinin "Oğul ata davamçısı" poeması varislik əlaqələrini poetik yaradıcılığa gətirən qiymətli bədii əsərdir[1]. Bu şəhid atası Rafiq Daşkəsəmənlinin sayca ikinci kitabıdır. Əsərdə ümummilli lidremiz Heydər Əliyevin və onun siyasi varisi İlham Əliyevin siyasi-ictimai fəaliyyəti ön plana çəkilib. Xalqımızın taleyüklü problemlərinin həllində hər iki tarixi şəxsiyyətin gördüyü işlər kamil, yüksək bədii formada ədəbi ictimaiyyətə çatdırılıb. Əsərin əvvəlində bildirilir ki, Heydər Əliyev kimi tarixi şəxsiyyətlər təxminən 300 ildən bir yaranır. Ümummilli liderin anadan olması, uşaqlıq illəri, təhsil alması, siyasi fəaliyyətə başlaması, bu yolda rastlaşdığı çətinliklər, Azərbaycanın iqtisadi, siyasi və mədəni inkişafındakı xidmətləri geniş aspektdə bədii yaradıcılıq prizmasından keçirilib.

"Oğul ata davamçısı" əsəri epik-lirik poemadır. Əsərdə ümummilli liderin həyatı, fəaliyyəti geniş planda bədii yaradıcılığa gətirilməklə yanaşı, şairin lirik yaşantıları, hadisələrin axarına təsir edən lirik ricətləri də əsərin ideya-məzmununun açılmasına xidmət edir.

Heydər Əliyev sənət və ədəbiyyatla bağlı lider idi. Vaxtaşırı sənət adamları ilə görüşür, onların problemlərinə yardımşı olur, yaradıcı şəxsiyyətlərə daim diqqət yetirirdi. Onun bu cür münasibəti ictimaiyyət arasında rəğbətlə qarşılanır və bütün bu qarşılıqlı münasibətlər bədii yaradıcılıq üçün qiymətli material verirdi.

İndiyə qədər Heydər Əliyev haqqında yazılan bədii əsərlər kifayət qədər olsa da, bunu hələ başlanğıc mərhələsi kimi dəyərləndirə bilərik. Hesab edirik ki, bu proses gələcəkdə dədavam edəcək, biz onu daha yaxından tanıyacaq, ədəbiyyatımızdakı dərkinə, bədii obrazına da yenidən qayıdacağıq.

Dissertasiyanın **"Nəticə"** hissəsində tədqiqatın ümumi məzmunundan doğan müddəalar və yekun qənaətlər ümumiləşdirilmişdir

Dissertasiya işinin əsas məzmunu və müddəaları müəllifin aşağıdakı monoqrafiya, kitablarında, Azərbaycanda və xarici ölkələrin nüfuzlu elmi jurnallarında dərc edilmiş məqalələrində və iştirak etdiyi beynəlxalq konfransların materiallarında öz əksini tapmışdır:

---

[1]Daşkəsəmənli R. Oğul ata davamçısı. Bakı: Nurlan, 2005, 100 s.

**Monoqrafiya və kitablar:**


1. Heydər Əliyev və ədəbi-tarixi proses. Monoqrafiya. Bakı: Elm, 2013, 156s.
2. Soykökümüz, milli-mənəvi mədəniyyətimiz, tariximiz. Bakı: Uni-Print, 2015, 511s.


**Beynəlxalq elmi konfrans materialları:**


1. Heydər Əliyev və Cavid taleyi / "Azərbaycan mədəniyyəti və incəsənəti Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının ideya -fəlsəfi əsası kimi" mövzusunda elmi-nəzəri konfransın materalları, Bakı şəhəri, 7 may 2013-cü il, s.75-79.
2. Hüseyn Cavidin irsinə əbədiyaşarlıq qazandıran ümummilli lider Heydər Əliyev / Tarixi İpək Yolu və Naxçıvanın iqtisadi- mədəni əlaqələrinin inkişafı məsələləri. "Beynəlxaq İpək yolu " konfrans materialları, Azərbaycan Universitetinin elmi jurnalı, Naxçıvan şəhəri, 16-17 oktyabr 2015-ci il, s.107-108.
3. Görkəmli dövlət xadimi Heydər Əliyev Üzeyir bəy Hacıbəylinin ədəbi-nəzəri və publisistik yaradıcılığı haqqında / "Türkoloji elmi mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" mövzusunda Beynalxalq Konfrans, Bakı şəhəri, 14-15 noyabr 2016, s.371-373.
4. Heydər Əliyev və islamın Azərbaycan modeli / Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilmiş "Milli-mənəvi dəyərlər: ənənə və müasirlik" mövzusunda keçirilən Beynəlxalq Elmi konfransın materialları . Azərbaycan Memarlıq və İnşaat Universiteti, Bakı, 2018, s.410-415.


**Məqalələr:**


5. Heydər Əliyev və ədəbiyyatda tarixilik prinsipi // Ədəbiyyat məcmuəsi. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əsərləri, 2016, XXVII cild, s.17-24.
6. Heydər Əliyevin nəzəri-fəlsəfi irsində Azərbaycan ədəbi -tarixi prosesi // Ədəbiyyat məcmuəsi. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əsərləri, 2016, XXVIII cild, s.40-46.
7. Heydər Əliyev və ədəbi şəxsiyyət fenomeni // AMEA-nın Xəbərləri, Humanitar elmlər seriyası, 2016, №1, s.11-14.
8. Heydər Əliyev və XX əsr Azərbaycan ədəbiyyatı // AMEA-nın Xəbərləri, Humanitar elmlər seriyası, 2016, №2, s.30-34.
9. Heydər Əliyevin nəzəri irsində Bəxtiyar Vahabzadə dramaturgiyası // Bakı Avrasiya Universiteti, "Sivilizasiya" jurnalı, 2016, №1, s.104-108.
10. Heydər Əliyevin nəzəri irsində ana dili problemi // "Terminologiya məsələləri" jurnalı, 2016, №1, s.39-45.

11. Heydər Əliyev və Azərbaycan dilində nitq mədəniyyəti // “Terminologiya məsələləri” jurnalı, 2016, №2, s.56-60.
12. Heydər Əliyevin irsində Hüseyn Cavid şəxsiyyəti // “Dil və ədəbiyyat” jurnalı, BDU, 2016, №3 (99), s.160-162.
13. Heydər Əliyevin azərbaycançılıq məfkurəsi və Səməd Vurğun poeziyası // “Dil və ədəbiyyat” jurnalı, BDU, 2016, №4 (100), s.180-182.
14. Heydər Əliyevin hakimiyyəti illərində Sovet Azərbaycan ədəbiyyatının inkişafı // İpək yolu. Azərbaycan Universitetinin Elmi jurnalı, 2016, №3, s.74-78.
15. Heydər Əliyev və sosializm realizmi ədəbiyyatının simaları // İpək yolu. Azərbaycan Universitetinin Elmi jurnalı, 2016, №4, s.140-143.
16. Dahilik zirvəsinin fatehləri: Məhəmməd Füzuli və Heydər Əliyev // Lənkəran Dövlət Universitetinin Elmi xəbərləri, Humanitar elmlər seriyası, 2016, s.75-79
17. Heydər Əliyevin nitqləri ədəbi-bədii mətn kimi // “Filologiya məsələləri” jurnalı, 2016, №1, s.322-326.
18. Cəlil Məmmədquluzadə yaradıcılığı Heydər Əliyevin təfəkkür işığında // “Filologiya məsələləri” jurnalı, 2016, №8, s.332-335.
19. Azərbaycan-Heydər Əliyevin çıxışlarındakı ən parlaq bədii-fəlsəfi və poetik söz kimi // “Filologiya məsələləri” jurnalı, 2016, №9, s.291-295.
20. Historicite et dansl`humaniteHeydarAliyev`spatrimoinelitteraire ettheorique // Revue de Critique et de Theorie Litteraire, Volume 13, 2018, № I, pp. 117-137.
21. Heydər Əliyev nitqlərinin poetikası // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, Humanitar elmlər seriyası,2016, №2(3), s.111-117.
22. Tarixi şəxsiyyət və bədii həqiqət // Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xəbərləri, 2015, №3, s.265-267.
23. Гейдар Алиев и классическое литературное наследие Азербайджана // Науковийвысникмыжнародногогуманытарногоуныверситету, серыя: фылологыя, Одесса, том 1,випуск 29, 2017, с.93-95.
24. Поэтика речей Гейдара Алиева // «Мова и култура», Киевский национальный университет имени Тараса Шевченко, Выпуск 19. Киев: 2017, том IV (184), с.226-232.
25. Heydər Əliyev ədəbiyyat tarixi haqqında // “Dil və ədəbiyyat” jurnalı, BDU, 2018,№ I (105), s.254-256.

**Салатын Алы кызы Ахмедова**

## Концепция Гейдара Алиева в наследии азербайджанского литературно-исторического процесса

## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, 5 глав с имеющимися в каждой из них соответствующими подглавами, заключения и списка использованной литературы.

В **«Введении»** говорится об актуальности темы, целях и задаче, объекте и предмете исследования, теоретико-практическом значении, научной новизне, теоретико-методологических основах, апробации и структуреработы.

**I глава** диссертационной работы называется «Литературно-исторический процесс в наследии Гейдара Алиева: основные тенденции и концепции». Эта глава состоит из трёх подглав: «Литературно-исторический процесс в свете современных научных критериев», «Новый лидер и новый литературный этап: демократические идеи в литературе 60-х годов» и «Историзм и современность в контексте современных литературных оценок». В этой главе, наряду сэтими тремя подглавами, в литературно-историческом и теоретическом аспекте исследованы: литературно-исторический процесс в свете современных научных критериев, начавшийся с приходомк власти Гейдара Алиева (1969)как нового лидера,и новый литературный этап, содержащий демократические устремления в азербайджанской литературе 60-х годов, концепция Гейдара Алиева овзаимосвязи историзма и современности в контексте современных литературных оценок.

**II глава** диссертационной работы называется «Гейдар Алиев и классико-литературное наследие» и включает три подглавы: «Концепция политического лидера о классическом литературном наследии», «Общественно-философское видение гуманистической сущности классической романтической поэзии» и «Оценка, данная Гейдаром Алиевым литературному наследию Мохаммеда Физули». В данной главе обстоятельно анализированы в основном: концепция Гейдара Алиева как политического лидера о литературном наследии, принципы его оценки творчества литературного деятеля, общественно-философский взгляд на гуманистическую сущность классической романтической поэзии, данная им оценка наследия великого Физули и

другие проблемы литературы как составные части концепции классического литературного наследия.

**III глава** исследования названа «Литература XX века: этапы и личности». Данная глава также в свою очередь включает 4 подглавы: «Новые критерии отношения к фактору литературной личности», «Судьба художника и проблема искусства в наследии Гейдара Алиева», «Проблема «человек и время» в литературно-теоретических взглядах Гейдара Алиева» и «Гейдар Алиев об истории и философии в поэзии». В данной главе к предмету исследования привлечены мысли Гейдара Алиева о новых критериях отношения к творческой личности, о проблеме «человек и время» в его литературно-теоретических взглядах, об историзме в поэтической традиции.

**IV глава** диссертационной работы «Гейдар Алиев и литература советского периода» состоит из трёх подглав: «Литература советского периода: историческая и художественная правда», «Новый подход к национальной и общечеловеческой сущности литературных связей», «Вопросы языка и стиля в теоретическом наследии Гейдара Алиева». В данной главе рассмотрены вопросы историзма и художественной правды в азербайджанской литературе советского периода с критериев современного литературоведения, важность литературных связей в национальном и общечеловеческом контексте, вопросы языка и стиля в литературе в теоретическом наследии Гейдара Алиева с критериев современного литературоведения.

Последняя, **V глава** исследования называется «Художественное воплощение образа Гейдара Алиева в азербайджанской литературе». Данная глава также состоит из трёх подглав: «Художественное осмысление исторической личности», «Творческийвзгляд на лидера, творящего историю» и «Художественное воплощение в поэтической памяти образа Гейдара Алиева». В данной главе исследованы идейно-художественные особенности создания образа Гейдара Алиева как великой исторической личности в литературном наследии таких известных представителей азербайджанской литературы периода Независимости, как ЗалимханЯгуб, АлирзаХалафлы, ЗейналВефа, Агшин Бабаев и др. Освещено художественное воплощение особых заслуг Гейдара Алиева в исторической судьбе азербайджанского народа.

В **Заключении** диссертации в 19 пунктах обобщены в виде тезисов вытекающие из всего содержания выводы и конечные результаты исследования.

**Salatin Ali qizi Ahmadova**

## The conception of Heydar Aliyev in the literary-historical process of Azerbaijan

## SUMMARY

The dissertation consists of introduction, 5 chapters, subsections, conclusion and list of used literature.

In the introduction of the dissertation is given information about topicality of the text, its purpose and duties, object and subjects of research, main defended articles, scientific methodological basis of dissertation, scientific innovation of research, its practical and theoretical significance, structure and approbation.

**Chapter I** is called "Literary-historical process in Heydar Aliyev's heritage: main tendencies and concepts". This chapter consists of 3 subsections named "Literary-historical process in the context of scientific standards", "New leader and new literary stage: democratic ideas in literature of 60s" and "Historicity and modernism in the context of contemporary literate values".

In this chapter including the subsections literary-historical processes in the context of modern scientific tendencies; Heydar Aliyev's rising to power as a new leader in 60s of XX century (1969); democratic trends in 60s' Azerbaijani literature; the unity of historicity and modernism in the context of contemporary literary values are researched in literary-historical and theoretical aspect.

**Chapter II** of the dissertation is entitled "Heydar Aliyev and classic-literate heritage" and includes three subsections – "Classical literate heritage concept of political leader", "Socio-philosophical view on the humanist nature of classical romantic poetry" and "Heydar Aliyev's appreciation to the literary heritage of Mohammed Fuzuli".

This chapter focuses on the concepts of Heydar Aliyev's classic literary heritage as a political leader, his estimation to great master Fuzuli, the socio-philosophical view on the humanist nature of classical romantic poetry and other literary problems.

**Chapter III** is called "Literature of the XX century: stages and personalities". The chapter is composed of 4 subsections – "New trends in the factor of literary personality", "Artist fate and art problem in Heydar Aliyev's heritage", "The issue of human and time in Heydar Aliyev's lite-

rary-theoretical views" and "Heydar Aliyev's opinions on history and philosophy in poetry".

This chapter discusses new trends in attitude to the factor of literary personalities during independence period, the problem of "human and time" in Heydar Aliyev's literary-theoretical views and his thoughts about historicity and philosophy in poetry.

**Chapter IV** named "Heydar Aliyev and literature of Soviet period" consists of the subsections of "Literature of the Soviet period: historical and poetic verity", "New approaches to national and universal essence of literary relations", "Language and style issues in Heydar Aliyev's theoretical heritage".

In this chapter the historicism and artistic truth in the literature of Soviet periodare analyzed, importance of literary relations among literatures are investigated in the national and universal context and language and style issues in Heydar Aliyev's theoretical heritage are explored with modern literary studies tendencies.

**Chapter V** is called "Poeticembodimentof Heydar Aliyev's image in the Azerbaijani literature". This chapter is composed of 3 subsections named "The comprehension of historical personality in poetic thinking", "Creative view to the leader that creating history" and "Poeticembodiment of Heydar Aliyev's image in poetic memory".

This chapter brings to the fore concept of Heydar Aliyev in poetic creativity and discusses the poetic features of the image of a great historical personality in literary heritage of Zalimkhan Yagub, Alirza Khalafi, Zeynal Fegan, Agshin Babayev and others. The poetic embodiment of Heydar Aliyev special merits in the history of Azerbaijani people is revealed.

In the **"Conclusion"** of the dissertation the opinions and final results are summarized as a thesis in 19 articles.

Kağız formatı: 60/84 16/1
Sayı: 100

AMEA-nın mətbəəsində çap olunmuşdur

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ЛИТЕРАТУРЫ имени НИЗАМИ ГЯНДЖЕВИ**

***На правах рукописи***

**САЛАТЫН АЛЫ кызы АХМЕДОВА**

# КОНЦЕПЦИЯ ГЕЙДАРА АЛИЕВА В НАСЛЕДИИ АЗЕРБАЙДЖАНСКОГО ЛИТЕРАТУРНО-ИСТОРИЧЕСКОГО ПРОЦЕССА

**5715.01– Теория литературы, литературный анализ и критика**

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание учёной степени
доктора наук по филологии

**БАКУ – 2018**